# XƏBƏR XƏZƏR

№ 451 İyun 2025

KHAZAR REVIEW

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





## AZƏRBAYCAN PREZİDENTİ DÜNYA ÇEMPİONU OLAN MİLLİ MİNİFUTBOL KOMANDASINI QƏBUL ETDİ

*İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib.*

**Prezident İlham Əliyev görüşdə çıxış etdi:**

-Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatı dünən başa çatdı. Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək, dünya çempionu titulunu qazanmışdır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə, komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var.

Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarımızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var. Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından sizə təşəkkürümü bildirirəm. Sağ olun.

Qəbulda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov, Milli komandanın baş məşqçisi Elşad Quliyev və Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda çıxış etdilər.

*Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda Azərbaycan Prezidenti ilə*






*Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi*

*Milli komandanın baş məşqçisi Elşad Quliyev Prezidentlə selfi çəkdirdi*



# İÇİNDƏKİLƏR

Azərbaycan Prezidenti dünya çempionu olan milli minifutbol komandasını qəbul etdi ....................2
Xəzər Universiteti "Times Higher Education İmpact Rankings 2025" reytinq cədvəlində yüksək yer alıb ....................6
Xəzər Universiteti "QS World University Rankings 2026" reytinqində dünyanın ən yaxşı 1000 universiteti arasında yer alıb ....................7
Xəzər Universitetinin nümayəndələri EMU-da keçirilən VII Beynəlxalq Türk Dünyası Turizm Konfransında ....................8
"Müasir dövrdə ailə dəyərlərimiz" mövzusunda elmi-praktik konfrans ....................10
Ortaq türk kültürü: Oğuz türkmanların dünəni, bu günü və gələcəyi" mövzusunda beynəlxalq simpozium ....................14
Xəzər Universiteti Forumu: "Rəqəmsal Əsrdə Suverenliyin Naviqasiyası" ....................18
Prof.Akad. Hamlet İsaxanlı Azərbaycan Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun seminarında ....................21
Tələbələr Tolerantlıq Evi Muzey-Mərkəzində ....................22
KİM-də "İnformascope" şirkətinin nümayəndəsi ilə görüş ....................23
Dillər bölməsinin koordinatoru Gəncə Dövlət Universitetinin dosenti ilə müştərək dərs keçmişdir ....................24
Tələbələr "SOCAR Polymer" zavodunda ....................25
ADPU Quba filialının akademik heyəti Xəzər Universitetində təcrübə proqramına start verib ....................27
Data analitikası mövzusunda seminar ....................28
Xəzər Musiqi Klubu üzvlərinin konserti ....................30
"Anadolu Məktəbi Yazıçı Oxuları" çərçivəsində "Çölün Bilicisi Çingiz Aytmatov" mövzusunda panel ....................32
"İnci Hotel"- də tələbələr üçün İnformasiya-təcrübə sessiyası ....................34
Xəzər Universiteti İstanbulda keçirilən təhsil sərgisində təmsil olundu ....................38
Xəzər Universitetinin əməkdaşı Çukurova Universitetində keçirilən beynəlxalq tədbirdə ....................39
İstanbul Beykent Universitetinin nümayəndə heyəti "Xəzər"də ....................40
Xəzər Universitetinin əməkdaşları Şimali Kiprdə keçirilmiş Beynəlxalq Əczaçılıq Konqresində ..41
Baytarlıq təbabəti departamenti tələbələrinin Caspian Aqro sərgisində iştirakı ....................46
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ....................48
Elm və Təhsil Nazirliyinin "Azərbaycan dili və ədəbiyyat tədrisi" elmi-metodik jurnalının təqdimatı ....................50
Tarix müəllimliyi ixtisası tələbələrinin Beynəlxalq Muzeylər günündə Bakıətrafı abidələrə səfəri52
"UniDestin" Tədris Mərkəzinin açılışı ....................58
"Xəzər"də Ümumdünya mədəni müxtəliflik günü qeyd olunub ....................66
İnşaat mühəndisliyi departamenti FHN Akademiyasında keçirilən elmi-texniki konfranslarda ....73
"Food Fair" xeyriyyə yarmarkası ....................76

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Azerbaijan President Receives National Minifootball Team That Became World Champion (*in Azerbaijani*) ....... 2**
**Khazar University Achieves High Ranking in "Times Higher Education Impact Rankings 2025" ... 6**
**Khazar University is among World's Top 1000 Universities in "QS World University Rankings 2026" Ranking ....... 7**
**Khazar University Representatives Participate in 7th International Turkic World Tourism Conference at EMU ....... 8**
**Scientific-Practical Conference on "Our Family Values in the Modern Era" ....... 10**
**Common Turkic Culture: International Symposium on Past, Present and Future of Oghuz Turkmens" ....... 14**
**Khazar University Forum: "Navigation of Sovereignty in Digital Era" ....... 18**
**Prof. Acad. Hamlet Isakhanli at the Seminar of the Institute of Mathematics and Mechanics of the Ministry of Science and Education of Azerbaijan ....... 21**
**Students at Museum-Center of House of Tolerance ....... 22**
**Meeting with Representative of "Informascope" at LIC ....... 23**
**Coordinator of Language Division Held a Joint Class with an Associate Professor from Ganja State ....... 24**
**Students Visit "SOCAR Polymer" Plant ....... 25**
**ADPU Quba Branch's Academic Staff Launches Internship Program at Khazar University ....... 27**
**Seminar on Data Analytics ....... 28**
**Concert by Members of Khazar Music Club ....... 30**
**Panel on "Chingiz Aitmatov, the Sage of the Steppe" within "Anatolian School Writer Readings" 32**
**Information and Practical Session for Students at "Inci Hotel" ....... 34**
**Khazar University Represented at Education Exhibition Held in Istanbul ....... 38**
**Khazar University Staff Member Participates in International Event Held at Cukurova University ....... 39**
**Delegation from Istanbul Beykent University at Khazar ....... 40**
**Khazar University Staff Members Participate in International Pharmaceutical Congress Held in Northern Cyprus ....... 41**
**Participation of Veterinary Medicine Department Students in Caspian Agro Exhibition ....... 46**
**News of Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ....... 48**
**Presentation of Ministry of Science and Education's "Teaching of Azerbaijani Language and Literature" Scientific-Methodological Journal ....... 50**
**History Teaching Students' Visit to Monuments Around Baku on International Museums Day ... 52**
**Opening of UniDestin" Training Center ....... 58**
**World Day for Cultural Diversity Celebrated at Khazar University ....... 66**
**Civil Engineering Department at Ministry of Emergency Situations Academy Scientific-Technical Conferences ....... 73**
**"Food Fair" Charity Market ....... 76**

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

THE IMPACT RANKINGS

# XƏZƏR UNİVERSİTETİ "TIMES HIGHER EDUCATION IMPACT RANKINGS 2025" REYTİNQ CƏDVƏLİNDƏ YÜKSƏK YER ALIB




# KHAZAR UNIVERSITY ACHIEVES HIGH RANKING IN "TIMES HIGHER EDUCATION IMPACT RANKINGS 2025"

2025-ci il iyunun 18-də dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2025-ci il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyənləşdirərək, "THE University Impact Rankings 2025" reytinq cədvəlini açıqlayıb.

Reytinqin 7-ci nəşrinə 130 ölkədən 2526 universitet daxil edilmişdir.

Xəzər Universiteti sözügedən reytinqdə Azərbaycan üzrə yüksək göstərici ilə 401-600 aralığında qərarlaşıb.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:

On June 18, 2025, "Times Higher Education" (THE), one of the world's most prestigious ranking organizations, announced the "THE University Impact Rankings 2025" ranking table, identifying the best world universities that distinguish themselves through their social and economic contributions based on the UN's "Sustainable Development Goals" for 2025.

The 7th edition of the ranking includes 2,526 universities from 130 countries.

Khazar University placed in the 401-600 range with high indicator for Azerbaijan in the aforementioned ranking.

More detailed information about the ranking is available at the following link:

*https://www.timeshighereducation.com/impactrankings#!/length/25/locations/AZE/sort_by/rank/sort_order/asc*

## XƏZƏR UNİVERSİTETİ "QS WORLD UNİVERSİTY RANKINGS 2026" REYTİNQİNDƏ DÜNYANIN ƏN YAXŞI 1000 UNİVERSİTETİ ARASINDA YER ALIB




QS reytinq agentliyi 2025-ci il iyunun 19-da dünyanın ən yaxşı universitetlərinin siyahısını açıqlayıb.

Xəzər Universiteti öz nəticələrinə görə "QS World University Rankings 2026" nəşrində dünyanın ən yaxşı 951-1000 universiteti aralığında yer almışdır.

Belə ki, reytinqdə universitetlər "Akademik nüfuz", "Məqaləyə sitat gətirmə", "İşəgötürənlər arasında nüfuz", "Məzunların reputasiyası", "Müəllim-tələbə nisbəti", "Əcnəbi müəllim payı", "Beynəlxalq tədqiqat şəbəkəsi" "Əcnəbi tələbə payı" və "Dayanıqlılıq" indikatorları üzrə göstəricilərinə əsasən qiymətləndirilir.

Qeyd edək ki, Xəzər Universiteti məqaləyə sitat gətirmə və əcnəbi tələbələrin sayı və onların müxtəlifliyi göstəriciləri üzrə Azərbaycan universitetləri arasında birincidir. Həmçinin, Xəzər Universiteti əcnəbi tələbələrin müxtəlifliyi göstəricisi üzrə dünya universitetləri arasında 538-ci yerdə qərarlaşmışdır.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:
*https://www.topuniversities.com/world-university-rankings*

## KHAZAR UNIVERSITY IS AMONG WORLD'S TOP 1000 UNIVERSITIES IN "QS WORLD UNIVERSITY RANKINGS 2026" RANKING

The QS ranking agency announced the list of the world's best universities on June 19, 2025.

According to its results, Khazar University is ranked between 951 and 1000 of the world's best universities in the "QS World University Rankings 2026" publication.

Thus, in the ranking, universities are evaluated based on their indicators of "Academic reputation", "Article citations", "Employer reputation", "Alumni reputation", "Faculty-student ratio", "Foreign faculty share", "International research network", "Foreign student share" and "Sustainability".

It should be noted that Khazar University is the first among Azerbaijani universities in terms of article citations and the number and diversity of foreign students. Khazar University also ranks 538th among the world's universities in terms of diversity of international students.

For more information about the ranking, please visit the following link:
*https://www.topuniversities.com/world-university-rankings*

## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ EMU-DA KEÇİRİLƏN VII BEYNƏLXALQ TÜRK DÜNYASI TURİZM KONFRANSINDA

Mayın 21-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akd. Hamlet İsaxanlı və universitetin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva Şimali Kiprin Famaqusta şəhərində yerləşən Şərqi Aralıq Dənizi Universitetinə (EMU) rəsmi səfər ediblər. Səfərin əsas məqsədi EMU-nun Turizm fakültəsi tərəfindən təşkil edilən nüfuzlu VII Beynəlxalq Türk Dünyası Turizm Konfransında iştirak etmək idi.

## KHAZAR UNIVERSITY REPRESENTATIVES PARTICIPATE IN 7TH INTERNATIONAL TURKIC WORLD TOURISM CONFERENCE AT EMU

On May 21, Professor Hamlet Isaxanli, the Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, along with Dr. Razia Isaeva, Dean of the School of Economics and Management, paid an official visit to the Eastern Mediterranean University (EMU) in Famagusta, Turkish Republic of Northern Cyprus. The primary purpose of the visit was to participate in the prestigious 7th International Turkic World Tourism Conference, organized by EMU's Faculty of Tourism.



Konfransdan öncə nümayəndə heyəti universitetlərarası əməkdaşlığın mümkün sahələrinin öyrənilməsi və EMU-nun akademik potensialı ilə tanışlıq məqsədilə EMU-nun Mühəndislik Fakültəsi, İncəsənət və Elmlər Fakültəsi, Memarlıq Fakültəsi, Əczaçılıq Fakültəsi, Tibb Fakültəsi, Diş Həkimliyi Fakültəsi, Kompüter və Texnologiya Məktəbi və Turizm və Qonaqpərvərlik İdarəetməsi Məktəbində olublar

Nümayəndə heyəti EMU-nun rektoru Prof. Dr. Həsən Kılıç, Beynəlxalq əlaqələr üzrə prorektor Prof. Dr. Osman Karadağ, Tədris işləri üzrə prorektor Prof. Dr. Əli Öztüren və digər rəhbər şəxslərlə görüşlər keçirib. Görüşlər zamanı turizm, iqtisadiyyat və idarəetmə sahələrində birgə təhsil və tədqiqat təşəbbüsləri, tələbə və müəllim mübadiləsi proqramları, eləcə də potensial ikili diplom proqramlarının yaradılması

Before the conference, the delegation visited the Faculty of Engineering, Faculty of Arts and Sciences, Faculty of Architecture, Faculty of Pharmacy, Faculty of Medicine, Faculty of Dentistry, School of Computing and Technology, and the School of Tourism and Hospitality Management at EMU to explore potential areas of inter-university collaboration and to familiarize themselves with EMU's academic capacity.

The delegation met with EMU Rector Prof. Dr. Hasan Kılıç, Vice-Rector for International Affairs Prof. Dr. Osman Karadağ, Vice-Rector for Academic Affairs Prof. Dr. Ali Öztüren, and other senior administrators. During these meetings, discussions centered around joint educational and research initiatives, student and faculty exchange programs, and the establishment of potential double-degree programs—particularly in




*Hamlet İsaxanlı*

məsələləri müzakirə edilib.

VII Beynəlxalq Türk Dünyası Turizm Konfransı türk dünyasının müxtəlif ölkələrindən gəlmiş alimləri, sahə mütəxəssislərini və siyasətçiləri bir araya gətirərək, dayanıqlı turizm, rəqəmsal transformasiya və mədəni əlaqələrin gücləndirilməsi kimi aktual mövzulara həsr olunmuşdur. Konfrans turizm sahəsində təhsil və siyasət baxımından bilik və təcrübə mübadiləsi üçün dəyərli bir platforma rolunu oynamışdır.

Konfransın rəsmi açılış mərasimində Prof.Akad. Hamlet İsaxanlı çıxış etmişdir. Turizmin gələcək inkişafında təhsilin rolu və mədəniyyətlərarası dialoqun əhəmiyyəti haqqında onun söylədikləri iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar öz çıxışında Prof.Akad. İsaxanlının fikirlərinə xüsusi yer ayırmış və bu çıxışı iki ölkə arasında akademik və mədəni əlaqələrin inkişafı kontekstində yüksək qiymətləndirmişdir. Səfər zamanı EMU tərəfindən nümayiş etdirilən yüksək səviyyəli qonaqpərvərlik və peşəkarlıq universitetin beynəlxalq akademik tərəfdaşlıqlara verdiyi dəyəri bir daha təsdiqləmişdir.

Bu səfər Xəzər Universiteti ilə Şərqi Aralıq Dənizi Universiteti arasında akademik və mədəni əlaqələrin daha da dərinləşməsinə böyük töhfə vermişdir. Turizm təhsilinin inkişafı və türk dünyasında regional əməkdaşlığın gücləndirilməsi istiqamətində ortaq maraqlar gələcəkdə hər iki universitet üçün faydalı olacaq yeni birgə təşəbbüslərin formalaşmasına zəmin yaradacaqdır.

the fields of tourism, economics, and management.

The 7th International Turkic World Tourism Conference brought together scholars, industry experts, and policymakers from various countries of the Turkic world, focusing on current topics such as sustainable tourism, digital transformation, and the strengthening of cultural ties. The conference served as a valuable platform for the exchange of knowledge and experience in terms of tourism education and policy.

At the official opening ceremony of the conference, Prof. Acad. Hamlet Isakhanli delivered a speech. His remarks on the role of education in the future development of tourism and the importance of intercultural dialogue were met with great interest by the participants.

Throughout the visit, EMU extended exceptional hospitality and professionalism, showcasing a strong commitment to academic diplomacy and regional collaboration.

This visit made a significant contribution to the further strengthening of academic and cultural ties between Khazar University and Eastern Mediterranean University.

The shared interests in the development of tourism education and the enhancement of regional cooperation within the Turkic world will lay the groundwork for new joint initiatives that will be beneficial for both universities in the future.

# "MÜASİR DÖVRDƏ AİLƏ DƏYƏRLƏRİMİZ" MÖVZUSUNDA ELMİ-PRAKTİK KONFRANS





Birol Akgün

# SCIENTIFIC-PRACTICAL CONFERENCE ON "OUR FAMILY VALUES IN THE MODERN ERA"

Mayın 22-də Xəzər Universiteti, İzmir Katib Çələbi Universiteti, Gəncliyə Yardım Fondu və "İstanbul Ailə Vəqfi"nin birgə təşkilatçılığı ilə "Müasir dövrdə ailə dəyərlərimiz" mövzusunda elmi-praktik konfrans keçirilib.

Xəzər Universitetində təşkil olunan konfransda şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı səsləndirilib.

Sonra ailə mövzusuna həsr olunmuş və "Dəyər Media Group" tərəfindən hazırlanmış "Ailə varsa, həyat var" adlı videoçarx nümayiş etdirilib.

Xəzər Universitetinin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev çıxışında bildirib ki, qloballaşan dünyada hər bir ölkənin qarşısında duran əsas məsələ milli-mədəni irsin və mənəvi dəyərlərin qorunmasıdır. Professor belə bir şəraitdə doğru seçim etməyin, kimliyimizi və milli-mənəvi zənginliyimizi qorumağın çətinləşdiyini bildirib. "İki qardaş ölkə – Azərbaycan və Türkiyə arasında bu sahədə həyata keçirilən birgə təşəbbüslər də təqdirəlayiqdir", - deyə rektor qeyd edib.

On May 22, a scientific-practical conference on "Our Family Values in the Modern Era" was held jointly organized by Khazar University, Izmir Katip Celebi University, Youth Assistance Fund, and the "Istanbul Family Foundation."

At the conference organized at Khazar University, the blessed memory of our martyrs was commemorated with a minute of silence, and the National Anthem of the Republic of Azerbaijan and the Independence March of the Republic of Türkiye were performed.

Subsequently, a video presentation titled "Where There is Family, There is Life," dedicated to the family theme and prepared by "Value Media Group," was screened.

In his speech, Acting Rector of Khazar University Prof. Mahammad Nuriyev stated that the main issue facing every country in the globalizing world is the preservation of national-cultural heritage and spiritual values. The professor noted that in such circumstances, making the right choice and protecting our identity and national-spiritual wealth has become more difficult. "Joint initiatives implemented in this field between two



*Ceyhun Məmmədov*

Türkiyənin Azərbaycandakı səfiri, Prof. Birol Akgün çıxışında ailə dəyərlərinin müasir dünyada qorunması məsələsinin vacib və həssas olduğunu və buna görə də 2025-ci ilin Türkiyədə Prezidentin təşəbbüsü ilə "Ailə ili" elan edildiyini bildirib. Səfir qeyd edib ki, Türkiyədə ailə institutunun möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib və bu təşəbbüs müvafiq istiqamətdə ictimai və akademik diqqətin artmasına səbəb olub. Birol Akgün Azərbaycanda bu məsələni qaldırdıqları və elmi-praktik konfransla gündəmə gətirdikləri üçün təşkilatçılara təşəkkür edib, tədbirin fəaliyyətinə uğurlar arzulayıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında müasir dövrdə milli-mənəvi dəyərlərin qorunmasının təkcə mədəniyyət yox, düşüncə mübarizəsi olduğunu, ailə institutunu zəifləətməklə milli dəyərlərin zəiflədildiyini qeyd edib. Deputat bildirib ki, ailə dəyərləri bizim milli kimliyimizin təməlidir və tarix boyu cəmiyyətimizi bir arada saxlayan ən mühüm sütun məhz ailə olub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət

*(Ardı səh.12-də)*

brotherly countries - Azerbaijan and Türkiye - are also commendable," the rector noted.

In his speech, Türkiye's Ambassador to Azerbaijan Prof. Birol Akgun stated that the issue of preserving family values in the modern world is important and sensitive, and therefore 2025 was declared the "Year of the Family" in Türkiye on the President's initiative. The ambassador noted that important measures have been implemented in Türkiye to strengthen the family institution, and this initiative has led to increased public and academic attention in the



*Səmra Əliyeva*

relevant direction. Birol Akgun thanked the organizers for raising this issue in Azerbaijan and bringing it to the agenda with the scientific-practical conference, wishing success to the event's activities.

In his speech, Member of Parliament Ceyhun Mammadov noted that national-spiritual values are being targeted in the modern era, that this struggle is not only cultural but also ideological, and that national values are weakened by weakening the family institution. The deputy stated

*(To be continued page 12)*




*Saffet Köse*

Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Səmra Əliyeva çıxışında sosial medianın ailələrə böyük zərbə vurduğunu, bu kimi məsələlərdə təkcə valideynlərin məsuliyyət daşımadığını, cəmiyyətin laqeyd yanaşmasının da mənfi hadisələrə səbəb olduğunu bildirib.

Sonra çıxış edən Katib Çələbi Universitetinin rektoru Prof. Saffet Köse ABŞ-ı misal gətirərək, müasir dövrdə ailə məfhumunun dəyişdirilməyə çalışıldığını və xüsusən də atasız ailə modelinin tətbiqinə çalışıldığını diqqətə çatdırıb. Sosioloq və psixoloqların həyəcan təbili çaldığını bildirən Saffet Köse araşdırmalarda atasız ailələrin bütün aspektlərdə geridə qaldığını və yenidən əvvəlki ailə modelinə qayıtmağın vacib olduğu qənaətinə gəlindiyini söyləyib.

Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim mədəniyyətimizdə, milli və mənəvi dəyərlərimizdə ailənin böyük məna kəsb etdiyini, Türk dünyasında ailənin ülvi məna daşıdığını bildirib. Qeyd edib ki, hazırda ailələr məqsədyönlü şəkildə dağıdılır və beləliklə minillik mədəniyyətimiz parçalanır. O vurğulayıb ki, cəmiyyəti ayaqda tutan sağlam, milli kimliyinə sahib çıxan və ənənəvi dəyərlərini qoruyan ailədir.

that family values are the foundation of our national identity and that the family has been the most important pillar holding our society together throughout history.

In her speech, Chief Adviser of the Family Issues Department of the State Committee on Family, Women and Children Issues Samra Aliyeva stated that social media deals a major blow to families, that parents alone are not responsible for such issues, and that society's indifferent approach also causes negative phenomena.

Prof. Saffet Kose, Rector of Katip Celebi University, who spoke next, cited the United States as an example, drawing attention to



*Ahmet Tecim*

attempts to change the concept of family in the modern era and particularly to implement the fatherless family model. Stating that sociologists and psychologists are sounding alarm bells, Saffet Kose said that research shows fatherless families lag behind in all aspects and concluded that it is important to return to the previous family model.

President of the Youth Assistance Fund Ahmet Tecim stated that family holds great significance in our culture, in our national and spiritual values, and that family carries sublime meaning in the Turkic world. He noted that




*Telman Nüsrətoğlu, Məhəmməd Nuriyev*

Tədbirdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlu çıxış etmişdir.

Rəsmi açılış mərasimindən sonra konfrans panel çıxışları ilə davam edib. Panel iclasda "Müasir dünyada ailəmiz: problemlər - həll yolları", "Rəqəmsal cəmiyyətdə ailə institutu və dəyərlərin transformasiyası: sosial-demoqrafik trendlər, çağırışlar", "Müasir Azərbaycan ailəsi: sosioloji təhlil", "Zamanla dəyişən rollar: Ər və arvadın çağdaş modeli", "Türk-İslam mədəniyyət tarixində ailə institutu" mövzularında məruzələr dinlənilib.

Konfransın sonunda məruzəçilər təşkilatçılar tərəfindən plaketlə təltif ediliblər.

*AZƏRTAC* tədbir haqqında xəbər yayımlayıb: https://azertag.az/xeber/muasir_dovrde_aile_deyerlerimiz_movzusunda_elmi_praktiki_konfrans_kechirilir-3570179

families are currently being deliberately destroyed, and thus our millennial culture is being fragmented. He emphasized that it is the healthy family that upholds society - one that embraces its national identity and preserves its traditional values.

The head of History and Archeology Department Associate professor Telman Nusratoghlu gave a speech.

After the official opening ceremony, the conference continued with panel presentations. During the panel session, presentations were heard on the topics: "Our Family in the Modern World: Problems - Solutions," "Family Institution and Transformation of Values in Digital Society: Socio-demographic Trends, Challenges," "Modern Azerbaijani Family: Sociological Analysis," "Changing Roles with Time: Contemporary Model of Husband and Wife," and "Family Institution in Turk-Islamic Cultural History."

At the end of the conference, the presenters were awarded plaques by the organizers.

# ORTAQ TÜRK KÜLTÜRÜ COMMON TURKIC CULTURE



## OĞUZ TÜRKMANLARIN DÜNƏNİ, BU GÜNÜ VƏ GƏLƏCƏYİ" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUM

## INTERNATIONAL SYMPOSIUM ON PAST, PRESENT AND FUTURE OF OGHUZ TURKMENS"

Mayın 26-27-də Xəzər Universitetinin Mərmər salonunda "Ortaq türk kültürü: Oğuz türkmanların dünəni, bu günü və gələcəyi" mövzusunda beynəlxalq elmi simpozium keçirilib. Tədbir Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutu (MAFİ) tərəfindən təşkil olunub. Simpoziumda Azərbaycan alimləri ilə yanaşı, digər ölkələrdən olan tanınmış tədqiqatçılar, ziyalılar və elm adamları iştirak ediblər.

On May 26-27, an international scientific symposium on "Common Turkic Culture: Past, Present and Future of Oghuz Turkmens" was held at the Marble Hall of Khazar University. The event was organized by the Institute of Cultural Anthropology and Folklore (ICAF) of Khazar University. The symposium was attended by Azerbaijani scholars as well as renowned researchers, intellectuals and scientists from other countries.



The opening of the symposium began with presentations by first-year students Nigar Alesgerli and Aydan Aliyeva. Through poetic examples reflecting the historical and cultural identity of Oghuz Turkmens, they emphasized the common heritage and national unity of Turkic peoples.

Simpoziumun açılış mərasimi universitetin birinci kurs tələbələri *Nigar Ələsgərli* və *Aydan Əliyevanın* çıxışı ilə başlayıb. Onlar Oğuz türkmanların tarixi-mədəni kimliyini əks etdirən poetik nümunə ilə türk xalqlarının ortaq irsini və milli birliyini vurğulayıblar.

Tədbirdə ilk çıxış edən MAFİ-nin koordinatoru Dos. Aynur Qəzənfərqızı simpoziumun elmi məqsədlərindən danışaraq qeyd edib ki, bu cür toplantılar türklərin ortaq mədəni yaddaşım gücləndirmək və gənc nəsillərə ötürmək baxımından olduqca vacibdir.

Assoc. Prof. Aynur Gazanfargizi, coordinator of ICAF, who made the first presentation at the event, spoke about the objectives of the symposium and noted that such gatherings are important for strengthening common cultural memory of Turks and transmitting it to younger generations.





Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı Türk dünyasının qədim mədəniyyətini qorumaq və birgə elmi əməkdaşlığı inkişaf etdirmək zərurətini vurğulayıb. Bildirib ki, türklərin ortaq mədəni kökləri bu gün elmi əsaslarla yenidən araşdırılmalı və gələcək nəsillərə çatdırılmalıdır.

Tədbirin fəxri qonaqlarından olan Türkmənistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov türkmən və Azərbaycan xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərindən bəhs edib.

Əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev İraq türkmanlarının mədəniyyətindən söz açaraq, onların türk mədəni sistemində tutduğu özünəməxsus yeri elmi faktlarla əsaslandırıb. O, vurğulayıb ki, İraq türkmanları türk dilini, adət-ənənələrini və folklorunu qoruyaraq, öz kimliklərini bu günə qədər yaşada bilmişlər.

Türkmənistan Milli Elmlər Akademiyasının Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun əməkdaşı Prof. Dövlətmurat Yazquliyev qədim türkmən ədəbiyyatının Ortaq Türk yazılı ənənəsi içindəki yerini təhlil edib və türkmən şairlərinin yaradıcılığını nü-

*(Ardı səh.16-da)*


*Aynur Qəzənfərqızı*



Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, emphasized the necessity of preserving the ancient culture of the Turkic world and developing joint scientific cooperation. He stated that the common cultural roots of Turks must be re-examined today on scientific grounds and conveyed to future generations.

Gurbanmemmet Elyasov, Extraordinary and Plenipotentiary Ambassador of Turkmenistan to Azerbaijan, who was among the honorary guests of the event, spoke about the historically existing friendship and brotherhood relations between the Turkmen and Azerbaijani peoples.

Honored Scientist Professor Gazanfar Pashayev discussed the culture of Iraqi Turkmens and substantiated with scientific facts their unique place in the Turkic cultural system. He emphasized that Iraqi Turkmens have been able to preserve their identity to this day by maintaining the Turkic language, customs and folklore.

Prof. Dovletmurat Yazguliyev, researcher at the Institute of Language, Literature and National Manuscripts of the National Academy of Sciences of Turk-

*(To be continued page 16)*

munə göstərərək, milli poetik dəyərlərin qorunmasından danışıb.

İraqın Bağdad Universitetinin professoru Siham Zengi türkman icmalarının tutduğu mövqedən, dillərinin və adət-ənənələrinin qorunmasından, həmçinin, türkmanların zəngin folklor irsinin mühitdə necə yaşadıldığından söz açıb.

AMEA Fəlsəfə İnstitutunun direktor müavini Prof. Eynulla Mədətli Türk fəlsəfi dünyagörüşünün formalaşmasında Oğuz türklərinin düşüncə mirasının rolunu önə çəkib və bu irsin çağdaş dövrdə fəlsəfi və mədəni əhəmiyyətini izah edib.

Tədbirin xarici (Niderland) qonaqlarından biri, azərbaycanşünas alim, Qarabağ haqqında üç dildə nəşr etdirdiyi 640 səhifəlik tədqiqat əsəri ilə tanınan Henri Van Renz hazırda türkmən mədəniyyəti üzərində işlədiyini və bu simpoziumun onun üçün zəngin elmi material mənbəyi olduğunu bildirib.

Simpoziumun açılış mərasimi başa çatdıqdan sonra tədbir plenar iclaslarla davam edib, çıxışlar dinlənilib və elmi müzakirələr aparılıb.

Simpoziumun bədii hissəsində Xəzər Universitetinin Kamera orkestri, universitetin müəllimi aşıq Ramin Qarayev tədbir iştirakçılarına milli ruhda musiqi təqdim ediblər.




*Henri Van Renz*

**Nigar Ələsgərli**
*Azerbaijan dili və ədəbiyyatı müəllimliyi ixtisası, I kurs*




*Qurbanməmmet Elyasov*

menistan, analyzed the place of ancient Turkmen literature within the Common Turkic written tradition and, citing the creativity of Turkmen poets as examples, discussed the preservation of national poetic values.

Professor Siham Zengi from Baghdad University in Iraq spoke about the position held by Turkmen communities, the preservation of their languages and customs, as well as how the rich folklore heritage of Turkmens is maintained in their environment.

Prof. Eynulla Madatli, Deputy Director of the Institute of Philosophy of ANAS, highlighted the role of Oghuz Turkic intellectual heritage in the formation of Turkic philosophical worldview and explained the philosophical and cultural significance of this heritage in the contemporary period.

Henri Van Renz, one of the foreign guests (Netherlands) of the event, an Azerbaijanologist scholar known for his 640-page research work on Karabakh published in three languages, stated




*Hamlet İsaxanlı, Siham Zengi*




*Qəzənfər Paşayev*

that he is currently working on Turkmen culture and that this symposium serves as a rich source of scientific material for him.

After the opening ceremony of the symposium concluded, the event continued with plenary sessions, presentations were heard and scientific discussions were conducted.




*Dövlətmurat Yazquliyev*



*Eynulla Mədətli*

In the artistic segment of the symposium, Khazar University's Chamber Orchestra and university instructor ashug Ramin Garayev presented music in the national spirit to the participants of the event.

**Nigar Alesgerli**
*Azerbaijani Language and Literature Teaching specialty, 1st year*

## XƏZƏR UNİVERSİTETİ FORUMU: "RƏQƏMSAL ƏSRDƏ SUVERENLİYİN NAVİQASİYASI"



Mayın 30-31-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı və Türkiyənin Ankara Hacı Bayram Veli Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsi, İbn Haldun Universitetinin Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzi və İstanbul Mədəniyyət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının tərəfdaşlığı ilə "Dünya" məktəbinin "İnci çiçəyi" Konfrans Mərkəzində Xəzər Universiteti Forumu: "Rəqəmsal Əsrdə Suverenliyin Naviqasiyası" keçirilmişdir.

Hibrid formatda keçirilən forumda Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin müşaviri Nicat Məmmədli, Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, Azərbaycan, Türkiyə, Pakistan, Çin, Qazaxıstan, Özbəkistan, Böyük Britaniya və Şimali



*Fırat Purtaş*

## KHAZAR UNIVERSITY FORUM: "NAVIGATION OF SOVEREIGNTY IN DIGITAL ERA"



*Hamlet İsaxanlı*

On May 30-31, the Khazar University Forum: "Navigation of Sovereignty in Digital Era" was held at the "Pearl Flower" Conference Center of "Dunya" School, organized by Khazar University's Department of Political Sciences and Philosophy and in partnership with Türkiye's Ankara Hacı Bayram Veli University Faculty of Economics and Management, Ibn Haldun University's Heydar Aliyev Eurasian Studies Center, and Istanbul Culture University's Department of International Relations.



*Özcan Erka Akgün*

The forum, conducted in hybrid format, was attended by Nijat Mammadli, Advisor to the Minister of Science and Education of the Republic of Azerbaijan, Khazar University leadership and staff, and scholars and specialists from Azerbaijan, Türkiye, Pakistan,

İrlandiya Birləşmiş Krallığı, Niderland və Malayziya alim və mütəxəssisləri iştirak etmişlər.

Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Zəkiyyə İğıl, İordaniya Krallığının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Omar Barakat Al-Nahar, ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndəsi Kənan



*Nicat Məmmədli*

Mustafayev və Meksika səfirliyinin nümayəndəsi Rodolfo Ivan Garcia Gonzalez forumun qonağı olmuşlar.

Tədbir zamanı Xəzər Universitetində yeni yaranan Texnologiyalar və Süni İntellekt Mərkəzinin təqdimatı keçirilmişdir.

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentin ilk beynəlxalq elmi konfransı olan bu forum "Rəqəmsal Əsrdə Suverenliyin Naviqasiyası" mövzusuna həsr edilmişdir. Mövzu seçilərkən, 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunması və süni intellektin dövlət idarəçiliyinə və suverenlik konsepsiyasına artan təsiri xüsusi nəzə-



*Gloria Shkurti Özdemir*

rə alınmışdır. İştirakçı ölkələrdən ümumilikdə 49 məruzə fiziki və onlayn formatda təqdim olunmuşdur;

Forum Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsa-

*(Ardı səh.20 -də)*



*Muhittin Ataman*

China, Kazakhstan, Uzbekistan, the United Kingdom of Great Britain and Northern Ireland, the Netherlands, and Malaysia.

The Ambassador Extraordinary and Plenipotentiary of the People's Democratic Republic of Algeria to Azerbaijan Zakiya Ighil, the Ambassador Extraordinary and Plenipotentiary of the Hashemite Kingdom of Jordan to Azerbaijan Omar Barakat Al-Nahar, representative of the US Embassy in Azerbai-



*Orxan Vəliyev*

jan Kenan Mustafayev, and representative of the Mexican Embassy Rodolfo Ivan Garcia Gonzalez were guests of the forum.

During the event, a presentation was held for the newly established Technologies and Artificial Intelligence Center at Khazar University.

This forum, which was the first international scientific conference of Khazar University's Department of Political Sciences and Philosophy, was dedicated to the theme "Navigating Sovereignty in the Digital Age." The topic was chosen with special consi-

*(To be continued page 20)*



*Ayaz Rzayev (Azərbaycan Təhsil İnstitutu)*

xanlının nitqi ilə başlamışdır. Sonra Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin müşaviri Nicat Məmmədli, İbn Haldun Universitetinin prorektoru Prof. Dr. Özcan Erka Akgün, Ankara Sosial Elmlər Universitetinin professoru, Türkiyə Prezidenti yanında müşavir və Scopus bazasında indekslənmiş "Insight Turkey" jurnalının baş redaktoru Prof. Muhittin Ataman, Ankara Hacı Bayram Veli Universitetinin professoru, dekan və Scopus bazasında indekslənmiş "Bilig" – Türk Dünyası Sosial Elmlər Jurnalının baş redaktoru Prof. Fırat Purtaş çıxış etmişlər.

Açılış nitqlərindən sonra Hamlet İsaxanlı çıxışçılara plaket təqdim etmiş və Türkiyədən olan qonaqlar da ona hədiyyə vermişlər.

Açılış mərasimindən sonra Prof. Muhittin Ataman forumun ilk panelinə moderatorluq etmiş, panel iştirakçıları isə Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev, Xəzər Universitetinin müəllimi, SETA İstanbul əməkdaşı Dr. Gloria Shkurti Özdemir, Ankara Hacı Bayram Veli Universitetinin professoru və yeni yaradılmış Texnologiyalar və Süni İntellekt Mərkəzinin direktoru Prof. Dr. Erman Akıllı olmuşdur.

Sonra İbn Haldun Universitetinin xüsusi paneli işə başlamışdır. Dos. Orxan Vəliyevin moderatorluğu ilə keçən bu sessiyasının panel iştirakçıları İbn Haldun Universitetinin prorektoru Prof. Özcan Erka Akgün, İbn Haldun Universiteti Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin müdiri Prof. Yaşar Sarı, həmin Mərkəzin assistenti doktorant Chountagi Bekir olmuşdur.

Mayın 30-da dörd (ikisi üz-üzə, ikisi onlayn formatda), mayın 31-də isə doqquz (beşi üz-üzə, dördü onlayn) panel iclası baş tutmuşdur.

Forumun sonunda iştirakçılar xatirə şəkli çəkdirmişlər. Tədbir *AZƏRTAC* və *Füyuzat TV* tərəfindən geniş işıqlandırılmışdır.

deration for the declaration of 2025 as the "Year of Constitution and Sovereignty" in Azerbaijan and the growing impact of artificial intelligence on state governance and the concept of sovereignty. A total of 49 presentations from participating countries were delivered in both physical and online formats.

The forum began with a speech by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. Subsequently, Nijat Mammadli, Advisor to the Minister of Science and Education of the Republic of Azerbaijan; Prof. Dr. Özcan Erka Akgün, Vice-Rector of Ibn Haldun University; Prof. Muhittin Ataman, Professor at Ankara Social Sciences University, Advisor to the President of Türkiye, and Editor-in-Chief of the Scopus-indexed journal "Insight Turkey"; and Prof. Fırat Purtaş, Professor and Dean at Ankara Hacı Bayram Veli University and Editor-in-Chief of the Scopus-indexed "Bilig" - Turkish World Social Sciences Journal, delivered speeches.

Following the opening speeches, Hamlet Isakhanli presented plaques to the speakers, and the guests from Türkiye also presented him with gifts.

After the opening ceremony, Prof. Muhittin Ataman moderated the forum's first panel, with panel participants being Assoc. Prof. Orkhan Valiyev, Director of Khazar University's Department of Political Sciences and Philosophy; Dr. Gloria Shkurti Özdemir, Lecturer at Khazar University and SETA Istanbul staff member; and Prof. Dr. Erman Akıllı, Professor at Ankara Hacı Bayram Veli University and Director of the newly established Technologies and Artificial Intelligence Center.

Subsequently, Ibn Haldun University's special panel commenced. This session, moderated by Assoc. Prof. Orkhan Valiyev, included panel participants Prof. Özcan Erka Akgün, Vice-Rector of Ibn Haldun University; Prof. Yaşar Sarı, Director of Ibn Haldun University's Heydar Aliyev Eurasian Studies Center; and doctoral candidate Chountagi Bekir, assistant at the same Center.

Four panel sessions were held on May 30 (two face-to-face, two online), and nine panel sessions on May 31 (five face-to-face, four online).

At the end of the forum, participants took commemorative photographs.

The event was extensively covered by *AZERTAC* and *Füyuzat TV*.

*https://azertag.az/xeber/reqemsal_esrde_suverenliyin_naviqasiyasi_movzusunda_forum_kechirilir-3586295*

*https://www.youtube.com/watch?v=giOzQAUyrEw*

# PROF.AKAD. HAMLET İSAXANLI AZƏRBAYCAN ELM VƏ TƏHSİL NAZİRLİYİ RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTUNUN SEMİNARINDA

# PROF. ACAD. HAMLET ISAKHANLI AT THE SEMINAR OF THE INSTITUTE OF MATHEMATICS AND MECHANICS OF THE MINISTRY OF SCIENCE AND EDUCATION OF AZERBAIJAN



*Türkiyənin Koç Universitetinin professoru Varga Kələntərov, Misir Mərdanov, Hamlet İsaxanlı, AMEA-nın həqiqi üzvü Yusif Məmmədov*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı 2025-ci il iyunun 4-də Azərbaycan Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun seminarında "Araşdırma Unversiteti və Sənaye: Tarix və Bugün; Dünyanı dəyişdirən Zəka və Süni İntellekt" mövzusunda geniş çıxış etmiş, fikirlərini bölüşmüşdür.

Tədbirdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Prof. Misir Mərdanov və institutun əməkdaşları iştirak etmişdir.

Prof.Akad. Hamlet İsaxanlının Araşdırma Universitetlərinin və Sənayenin Tarixi və bu günü haqqında, və əsasən də son zamanlar dünyanı dəyişən zəka və süni intellekt haqqındakı ətraflı çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanıb, mövzunun davamı üçün gələcək seminarlarda yenə də çıxış etmək təklif olunub. Prof.Akad. Hamlet İsaxanlı da öz növbəsində institutun əməkdaşlarını Xəzər Universitetində "Süni İntellekt" mövzusunda keçiriləcək seminarlara dəvət edib.

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, delivered an extensive presentation on June 4, 2025, at the seminar of the Institute of Mathematics and Mechanics of the Ministry of Science and Education of Azerbaijan on the topic "Research University and Industry: History and Today; Intelligence and Artificial Intelligence Changing the World," sharing his insights. The event was attended by the Director of the Institute of Mathematics and Mechanics, corresponding member of ANAS, Prof. Misir Mardanov, and the institute's staff members.

Prof. Acad. Hamlet Isakhanli's detailed presentation about the history and present state of Research Universities and Industry, and particularly about intelligence and artificial intelligence that have been changing the world recently, was received with great interest by the participants, and he was invited to speak again at future seminars to continue the topic. Prof. Acad. Hamlet Isakhanli, in turn, invited the institute's staff members to seminars on "Artificial Intelligence" to be held at Khazar University.

## TƏLƏBƏLƏR TOLERANTLIQ EVİ MUZEY-MƏRKƏZİNDƏ

Mayın 2-də Bakıdakı Tolerantlıq Evi Muzey-Mərkəzində Xəzər Universitetinin tələbələri üçün "Albaniyadan günümüzə: Alban-Udi icması ilə tarix, irs və tolerantlıq" mövzusunda tarixi-mədəni maarifləndirici görüş və dialoq təşkil edilib.

Tədbirin qonağı Alban-Udi dini icmasının sədri Robert Mobili olub. O, qədim Qafqaz Albaniyası dövründən başlayaraq müasir dövrdə Alban-Udi icmasının tarixi, dini-mədəni irsi və Azərbaycan cəmiyyətində tolerantlıq ənənələri haqqında ətraflı məlumat verib.

Tələbələrin fəal iştirakı ilə keçən görüş zamanı mövzu ətrafında maraqlı müzakirələr aparılıb, sual-cavab sessiyasında iştirakçılar bir sıra vacib məqamlarla bağlı suallarını səsləndiriblər.

Təşkil olunmuş tədbir tələbələr üçün həm maarifləndirici, həm də dəyərli təcrübə mübadiləsi baxımından əhəmiyyətli olub.

## STUDENTS AT MUSEUM-CENTER OF HOUSE OF TOLERANCE

On May 2, a historical and cultural awareness-raising meeting and dialogue titled "From Albania to the Present: History, Heritage, and Tolerance with the Albanian-Udi Community" was organized for Khazar University students at the Museum-Center of the House of Tolerance in Baku.

The guest of the event was Robert Mobili, head of the Albanian-Udi religious community. He provided detailed insights into the history and religious-cultural heritage of the Albanian-Udi community from the era of ancient Caucasian Albania to the present day, as well as the traditions of tolerance in Azerbaijani society.

Held with the active participation of students, the meeting featured engaging discussions around the topic, and during the Q&A session, participants raised questions on several key issues.

The event proved to be both educational and a valuable experience-sharing opportunity for the students.



*Robert Mobili*

## *KİM-DƏ "İNFORMASCOPE" ŞİRKƏTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ*

## *MEETING WITH REPRESENTATIVE OF "INFORMASCOPE" AT LIC*



*Umid Yonter*



Mayın 2-də Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin (KİM) təşkilatçılığı ilə dünyanın aparıcı elmi nəşriyyat və informasiya təchizatçılarından biri olan "İnformascope" şirkətinin nümayəndəsi Umid Yonter ilə görüş keçirildi.

Umid Yonter ScienceDirect eBooks və ScienceDirect AI haqqında geniş təqdimatla çıxış etdi. O, ScienceDirect bazasının abunəlik şərtləri, üstünlükləri haqqında ətraflı məlumat verdi.

Təqdimatda "ScienceDirect" bazasının effektiv axtarış üsulları və praktik olaraq süni intellekt modulundan istifadə qaydası nümayiş olundu.



Sonda iştirakçıları maraqlandıran suallar təlimçi tərəfindən cavablandırıldı.



On May 2, a meeting was held with Umid Yonter, representative of "Informascope," one of the world's leading scientific publishing and information providers, organized by the Library and Information Center (LIC) of Khazar University.

Umid Yonter delivered an extensive presentation on ScienceDirect eBooks and ScienceDirect AI. He provided detailed information about the subscription terms and advantages of the ScienceDirect database.

The presentation included a demonstration of effective search methods within the ScienceDirect platform and practical guidance on using the artificial intelligence module.

At the end, the trainer answered participants' questions with regard to the topics of interest.

# DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNİN DOSENTİ İLƏ MÜŞTƏRƏK DƏRS KEÇMİŞDİR

# COORDINATOR OF LANGUAGE DIVISION HELD A JOINT CLASS WITH AN ASSOCIATE PROFESSOR FROM GANJA STATE

Mayın 2-də Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin müdiri Dr. Sevinc Qəmbərova Gəncə Dövlət Universitetinin dosenti Aytən Əhmədova ilə birlikdə "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üzrə "Elmi məqalələrin yazılması və nəşri" mövzusunda müştərək dərs keçmişlər. Dərsdə elmi məqalələrin tərtibinə verilən tələblər, mövzuların seçilməsi, ədəbiyyatların toplanılması və istifadəsi, kodlaşdırmanın aparılması qaydaları, məqalələrin quruluşu və nəşri, plagiatlıq hallarının aşkara çıxarılması, beynəlxalq elmi bazalar və s. barədə danışılmışdır.

Dərs tələbələrin sualları əsasında davam etdirilmiş, qarşılıqlı müzakirə şəklində yekunlaşdırılmışdır. Sonra Dos. Aytən Əhmədova müəllifi olduğu "Müasir Azərbaycan dilində qoşmanın qrammatik-semantik xüsusiyyətləri" mövzusunda monoqrafiyasını və "Azərbaycan dilindən praktikum" adlı dərs vəsaitini Xəzər Universitetinin kitabxanasına hədiyyə etmişdir.

On May 2, Dr. Sevinc Qambarova, Coordinator of the Language Division of the Department of Languages and Literatures at Khazar University, conducted a joint class with Associate Professor Aytan Ahmadova from Ganja State University on the topic "Writing and Publishing Scientific Articles" within the course "Business and Academic Communication in the Azerbaijani Language."

The class covered the requirements for structuring scientific articles, topic selection, collection and use of literature, coding procedures, article structure and publication, detection of plagiarism, international scientific databases, and more.

The session continued based on students' questions and concluded in the form of mutual discussion. At the end, Assoc. Prof. Aytan Ahmadova presented her monograph titled "Grammatical and Semantic Features of Postpositions in Modern Azerbaijani" and her course book "Practicum in the Azerbaijani Language" as a gift to the Khazar University Library.



*Sevinc Qəmbərova, Aytən Əhmədova, Aytac Misgərli (Kitabxana İnformasiya Mərkəzi)*

# TƏLƏBƏLƏR "SOCAR POLYMER" ZAVODUNDA

# STUDENTS VISIT "SOCAR POLYMER" PLANT



Mayın 2-də Kimya və kimya mühəndisliyi departamentinin kimya mühəndisliyi və kimya müəllimliyi ixtisasında təhsil alan tələbələri üçün "SOCAR Polymer" zavoduna ekskursiya təşkil edilmişdir. Tələbələr zavodun əsas əməliyyat sahələri, o cümlədən idarəetmə otağı, laboratoriya və qablaşdırma bölmələri ilə tanış olublar.

Ekskursiya zamanı "SOCAR Polymer" zavodunun mütəxəssisləri sənaye proseslərində istifadə olunan avadanlıqlar haqqında ətraflı izahatlar vermiş və zavodun gündəlik fəaliyyəti ilə bağlı praktiki məlumatları tələbələrlə bölüşmüşlər. Mütəxəssislər, həmçinin, tələbələrin suallarını cavablandıraraq, onların tədris zamanı öyrəndikləri nəzəri biliklərin istehsalat şəraitində tətbiqi haqqında fikir mübadiləsi aparmışlar.

On May 2, an excursion to the "SOCAR Polymer" plant was organized for students majoring in Chemical engineering and Chemistry education of the Department of Chemistry and Chemical Engineering. During the tour, the students got acquainted with the main operational areas of the plant, including the control room, laboratory and packaging departments.

During the excursion, the specialists of the "SOCAR Polymer" gave detailed explanations about the equipment used in industrial processes and shared practical information about the daily activities of the plant with the students. The experts also answered the students' questions and exchanged views on the application of the theoretical knowledge they learned during their studies in production conditions.

## TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA

Aprelin 27-si və mayın 4-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun rəhbərliyi ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna ekskursiya səfəri ediblər.

Ekskursiya zamanı Dr. Yaqub Məmmədov tələbələrə Qobustanın arxeoloji cəhətdən öyrənilməsi və muzeydə saxlanılan arxeoloji nümunələr haqqında geniş məlumat verib. Eləcə də, tələbələrlə qayalar üzərində yüzlərlə piktoqrafik nümunələr, onların çəkilmə texnilkaları və dünyada yeri haqqında müzakirələr aparılıb.

Qeyd etmək lazımdır ki, muzeylərlə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir və bu iş mütəmadi təşkil olunur.

## STUDENTS AT GOBUSTAN STATE HISTORICAL AND ARTISTIC RESERVE

On April 27 and May 4, first-year students of the School of Natural Sciences and Engineering at Khazar University went on an excursion to the Gobustan State Historical and Artistic Reserve under the guidance of Dr. Yaqub Mammadov, lecturer at the Department of History and Archaeology.

During the excursion, Dr. Yaqub Mammadov provided students with extensive information about the archaeological study of Gobustan and the archaeological artifacts preserved in the museum. Discussions were also held with students on the numerous pictographic samples carved on the rocks, their techniques of depiction, and their place in world heritage.

It should be noted that visits to museums serve to reinforce the theoretical knowledge students acquire and are regularly organized as part of the educational process.



## ADPU QUBA FİLİALININ AKADEMİK HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ TƏCRÜBƏ PROQRAMINA START VERİB

Mayın 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının akademik heyəti Xəzər Universitetində qonaq olub. Səfər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi və tədris təcrübəsinin paylaşılması məqsədilə həyata keçirilib.

Görüş Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında tədris olunan fənlər üzrə təcrübə proqramı çərçivəsində təşkil olunub. Təcrübə proqramının təşkilini Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri, Dos. Dilbər Zeynalova həyata keçirib. O, qonaqlara adı çəkilən ixtisas üzrə tədris planı və proqramları, fənlərin təlim nəticələri, akademik heyətin dərs yükü və digər müvafiq məsələlərlə bağlı ətraflı məlumat verib və iştirakçıların suallarını cavablandırıb. Görüş çərçivəsində qonaqlar Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva ilə də qarşılıqlı fikir mübadiləsi aparıblar.

Təcrübə iştirakçıları, həmçinin, Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzində və Nailəxanım İsayeva adına Mədəniyyət Mərkəzində olublar.

Qeyd edək ki, təcrübə proqramı 5-12 may tarixlərini əhatə edir. Bu müddət ərzində iştirakçılar ixtisas fənlərinin tədris prosesində bilavasitə iştirak edəcək, eləcə də fənn üzrə metodiki və pedaqoji müzakirələr aparacaqlar.



## ADPU QUBA BRANCH'S ACADEMIC STAFF LAUNCHES INTERNSHIP PROGRAM AT KHAZAR UNIVERSITY

On May 5, the academic staff of the Quba branch of the Azerbaijan State Pedagogical University (ADPU) visited Khazar University. The visit aimed to foster cooperation between the two universities and facilitate the exchange of teaching experience.

The meeting was held within the framework of an internship program for subjects taught in the specialty of Azerbaijani Language and Literature Teaching. The program was organized by Associate Professor Dilbər Zeynalova, Head of the Department of Languages and Literatures at Khazar University. She provided the guests with detailed information on the curriculum and syllabi for the mentioned specialty, course learning outcomes, teaching load of the academic staff, and other relevant issues, and answered the participants' questions.

As part of the visit, the guests also exchanged ideas with Prof. Məhəmməd Nuriyev, Acting Rector of Khazar University, and Aygün Verdiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences. Additionally, the internship participants visited Khazar University's Library and Information Center and the Nailakhanum Isayeva Cultural Center. It should be noted that the internship program covers the period of May 5–12. During this time, the participants will take part in the teaching process of specialty subjects and engage in methodological and pedagogical discussions.

## DATA ANALİTİKASI MÖVZUSUNDA SEMİNAR





*Cem Sərtdaş*

## SEMINAR ON DATA ANALYTICS

Mayın 8-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin və "İnnab Business School"un birgə təşkilatçılığı ilə "Data analitikası nədir? Data analitik kimdir?" mövzusunda seminar keçirildi. Seminar, data analitika sahəsində 30 ildən artıq təcrübəyə malik tanınmış mütəxəssis və təlimçi Cem Sərtdaş'ın təqdimatında baş tutdu.

Tədbirin məqsədi tələbələrə data analitikası sahəsi haqqında ətraflı məlumat vermək, bu istiqamətdə onların nəzəri biliklərini artırmaq və praktiki yanaşmalarla tanış etmək idi.

Seminar zamanı Cem Sərtdaş data analitikasının


*Nərmin Sarıyeva*



mahiyyəti, bu sahədə istifadə olunan metod və alətlər, eyni zamanda data analitikin gündəlik fəaliyyəti və qarşılaşdığı real iş situasiyaları barədə ətraflı məlumat verdi.

Həmçinin, "İnnab Business School"un korporativ satış rəhbəri Nərmin Sarıyeva çıxışında şirkətin təklif etdiyi təlimlər barədə məlumat verdi və qeyd etdi ki, Xəzər Universitetinin tələbələri həmin tə-

On May 8, a seminar titled "What is Data Analytics? Who is a Data Analyst?" was held through the joint organization of Khazar University's Career and Alumni Center and "Innab Business School." The seminar was presented by Cem Sertdaş, a renowned expert and trainer with over 30 years of experience in the field of data analytics.

The objective of the event was to provide students with comprehensive information about the field of data analytics, enhance their theoretical knowledge in this direction, and familiarize them with practical approaches.

During the seminar, Cem Sertdaş provided detailed information about the essence of data analytics, methods and tools used in this field, as well as the daily activities of a data analyst and real work situations they encounter. Additionally, Narmin Sariyeva, the corporate sales manager of "Innab Business School," provided information about the training programs offered by the company and

limlərə xüsusi güzəştlə qoşulma imkanı əldə edəcəklər.

Tədbirdə iştirak edən tələbələr müxtəlif sahələrdə data analitikasının necə tətbiq olunduğu, bu peşəyə yiyələnmək üçün hansı bacarıq və biliklərin tələb olunduğu, həmçinin bu sahədə mövcud olan karyera imkanları barədə məlumat əldə etdilər. Seminar interaktiv formada keçdi və iştirakçılar mütəxəssislərə suallar ünvanlayaraq maraqlandıqları məqamlarla bağlı geniş cavablar aldılar. Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi bu kimi maarifləndirici tədbirləri davamlı şəkildə təşkil etməyi planlaşdırır. Mərkəzin əsas məqsədi tələbələrin əmək bazarına daha hazırlıqlı çıxmasına dəstək olmaq və onları müasir peşə istiqamətləri ilə tanış etməkdir.

noted that Khazar University students would have the opportunity to join these training programs with special discounts. Students participating in the event gained insights about how data analytics is applied across various fields, what skills and knowledge are required to master this profession, as well as available career opportunities in the field. The seminar was conducted interactively, and participants received comprehensive answers to their questions by addressing the experts.

Khazar University's Career and Alumni Center plans to organize such educational events on a continuous basis. The main goal of the center is to support students in becoming better prepared for the labor market and introduce them to modern professional directions.

## TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA
## STUDENTS VISIT GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE



Mayın 11-də Xəzər Universitetinin humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi (I kurs) və Tarix-coğrafiya müəllimliyi (III kurs) ixtisasında təhsil alan tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun rəhbərliyi ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda olublar.

Dr. Yaqub Məmmədov tələbələrə Qobustan abidəsinin tədqiqi, dünyada yeri haqqında ətraflı məlumat verib. Abidə ilə əyani tanışlıq tələbələr tərəfindən maraqla qarşılanıb.

Qeyd etmək lazımdır ki, muzeylərlə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir və bu iş mütəmadi təşkil olunur.

On May 11, students of Khazar University's School of Humanities, Education and Social Sciences, majoring in History Teaching (1st year) and History-Geography Teaching (3rd year), made an excursion to the Gobustan State Historical-Artistic Reserve under the guidance of Dr. Yagub Mammadov, instructor from the Department of History and Archaeology.

Dr. Yagub Mammadov provided the students with detailed information about the research on the Gobustan monument and its significance in the world. The hands-on acquaintance with the monument was received with great interest by the students.

It should be noted that familiarization with museums serves to reinforce the theoretical knowledge acquired by students, and this activity is organized regularly.

## XƏZƏR MUSİQİ KLUBU ÜZVLƏRİNİN KONSERTİ

## CONCERT BY MEMBERS OF KHAZAR MUSIC CLUB






*Aslixan*

Mayın 11-də Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində universitetin İqtisadiyyat və menecment fakültəsi və Xəzər Musiqi Klubu tərəfindən musiqi və ifaçılıq istedadı olan tələbələrin, Xəzər Musiqi Klubu üzvlərinin və qonaqların – pop və rep ifaçısı Aslixan və Eurovisionda Azərbaycanı təmsil etmiş pop ifaçısı Nadir Rüstəmlinin iştirakı ilə konsert təşkil olundu. Konsertdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayeva, tələbələr və müəllimlər iştirak edirdilər.



Konsertin ilk hissəsində İqtisadiyyat və menecment, Humanitar, təhsil və sosial elmlər və Təbiət elmləri və mühəndislik fakültələrindən musiqi istedadı olan tələbələr müxtəlif mahnılar səsləndirdilər.

Sonra Xəzər Musiqi Klubu üzvlərinin konsert proqramı təqdim olundu. İqtisadiyyat və menecment

On May 11, a concert was organized at Khazar University's Fikret Amirov Conference-Concert Center by the university's School of Economics and Management and the Khazar Music Club, featuring students with musical and performance talents, members of the Khazar Music Club, and special guests – pop and rap performer Aslihan and pop singer Nadir Rustamli, who represented



Azerbaijan at Eurovision. The concert was attended by Raziya Isayeva, Dean of the School of Economics and Management, along with students and teachers.

In the first part of the concert, musically talented students from the School of Economics and Management, School of Humanities, Education and Social Sciences, and School of Science and Engineering per-

fakültəsindən Bəhruz Sultanov ("La Luna" , "Bizdən Olmaz" - bu iki musiqinin müəlliflik hüquqları da ona aiddir), Nuray Əliyeva ("La Luna", "Rolling İn The Deep"), Sənhan Hüseynov ("Ay işığında") ; Humanitar, təhsil və sosial elmlər fakültəsindən Xalidə Əliyeva ("Gəl qaytar eşqimi", "Ölsəm bağışla"), Yəmən Əliyeva ("Aldadıldıq"), Nigar Atakişiyeva ("Gəl ey səhər", "Gəl qaytar eşqimi", Şəfəq Nağızadə ("Səndən nigaranam" , " Sən gələndə") ; Təbiət elmləri və mühəndislik fakültəsindən Şadman Bəlqiyaslı ("Yada sal məni") müxtəlif mahnılar ifa etdilər.

Sonda Aslixan və Nadir Rüstəmlinin ifaları musiqi sevər tələbələr üçün əslində ustad dərsi oldu.

Böyük maraqla qarşılanan konsert xoş əhval-ruhiyyə və alqışlarla sona çatdı.



*Nadir Rüstəmli*



Yemen Aliyeva, Nigar Atakishiyeva, Shafag Naghizade; from the School of Natural Sciences and Engineering, Shadman Belgiyasli performed various songs.

Finally, the performances by Aslihan and Nadir Rustamli served as a masterclass for the student musicians.

The concert, which was received with great interest, concluded with a positive atmosphere and applause.

formed various songs.

Then, the concert program of the Khazar Music Club members was presented. From the School of Economics and Management, Bahruz Sultanov, Nuray Aliyeva, Sanhan Huseynov from the School of Humanities, Education and Social Sciences, Khalida Aliyeva,





## “ANADOLU MƏKTƏBİ YAZIÇI OXULARI” ÇƏRÇİVƏSİNDƏ “ÇÖLÜN BİLİCİSİ ÇİNGİZ AYTMATOV” MÖVZUSUNDA PANEL

## PANEL ON "CHINGIZ AITMATOV, THE SAGE OF THE STEPPE" WITHIN "ANATOLIAN SCHOOL WRITER READINGS"

Mayın 12-də Bakı Türk Anadolu Liseyində “Anadolu Məktəbi Yazıçı Oxuları” çərçivəsində “Çölün Bilicisi Çingiz Aytmatov” mövzusunda panel keçirilmişdir. Panelin təşkilatçısı, liseyin türk dili və ədəbiyyatı müəllimi Meral Bahar “Anadolu Məktəbi Yazıçı Oxuları” haqda məlumat vermişdir. Bakı Türk Anadolu Liseyinin müdiri Abdullah Yılmaz Anadolu Məktəbinin keçirdiyi panellər və mütaliə günlərinin türk dünyasını zəngin mədəni irs ətrafında birləşdirdiyini vurğulamış, panel iştirakçılarına uğurlar arzulamışdır.

Panelin rəhbəri - Ali İzzet Kavuk və panelçilər Bakı Türk Anadolu Liseyinin şagirdləridir. Liseyin şagirdləri Zehra Aydın “Çingiz

On May 12, a panel titled "Chingiz Aitmatov, the Sage of the Steppe" was held at Baku Turkish Anatolian Lyceum as part of the "Anatolian School Writer Readings" program. The panel organizer, Meral Bahar, Turkish language and literature teacher at the lyceum, provided information about the "Anatolian School Writer Readings." Abdullah Yılmaz, the principal of Baku Turkish Anatolian Lyceum, emphasized that the panels and reading days organized by the Anatolian School unite the Turkic world around a rich cultural heritage, and wished success to the panel participants.

The panel was moderated by Ali İzzet Kavuk, and the panelists were students of the Baku Turkish Anatolian Lyceum. The lyceum stu-



Aytmatovun əsərlərində ata obrazı", Rahmet Satı Koyuncu "Çingiz Aytmatovun əsərlərində müharibə", Arzu Rüstəmzadə "Çingiz Aytmatovun əsərlərində mifoloji elementlər", Melike Betül Kadirhan "Aytmatovun pəncərəsindən insanın daxili dünyasına baxış" mövzularında çıxışlar etmişlər.

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy panelçilər çıxışlarını qiymətləndirmişdir. Ülvi Babasoy Aytmatovun nəsrini ata fenomeni, müharibə, mifologiya və daxilə çəkilməyin estetikası kontekstində təhlil etmişdir. Ülvi Babasoya Türkiyənin Azərbaycandakı səfirliyinin Təhsil müşavirliyinin plaketi təqdim olunmuşdur. Sonda liseyin şagirdlərinin Çingiz Aytmatov yaradıcılığının motivləri əsasında çəkdikləri rəsm əsərlərinin sərgisi nümayiş etdirilmişdir.

## DİLLƏR BÖLMƏSİNDƏ MAGİSTR DİSSERTASİYASININ İLKİN MÜZAKİRƏSİ

Mayın 12-də Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsində Azərbaycan dili ixtisası üzrə təhsil alan Adikə Pərviz qızı Alməmmədovanın "Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində əvəzliklər" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilmişdir.

İclası bölmənin koordinatoru Dr.Sevinc Qəmbərova açaraq, komissiya üzvlərini magistrantın sənədləri ilə tanış etmişdir. Sonra Adikə Alməmmədova mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsəd və vəzifələri, quruluşu və fəsilləri, elmi yeniliyi, əldə edilmiş nəticələr, müraciət olunmuş mənbələr və s. barədə əhatəli şəkildə məlumat vermişdir.

Dissertasiya işinin elmi rəhbəri Dr.Reyhan Mədətova çıxış edərək, mövzuya müraciət edilməsi səbəblərindən, dissertasiya işinin yerinə yetirilməsi prosesindən, tədqiqat işinin metodlarından və s.bəhs etmişdir. İclas iştirakçıları magistranta suallarını ünvanlamış, fikirlərini bölüşərək öz tövsiyələrini vermişlər. Dissertasiya işi qənaətbəxş hesab olunmuş və növbəti mərhələyə buraxılması qərara alınmışdır.

dents Zehra Aydın presented on "Father figure in Chingiz Aitmatov's works," Rahmet Satı Koyuncu on "War in Chingiz Aitmatov's works," Arzu Rustamzadeh on "Mythological elements in Chingiz Aitmatov's works," and Melike Betül Kadirhan on "A view into the inner world of humans through Aitmatov's perspective."

Ulvi Babasoy, instructor at Khazar University's Department of Languages and Literature, evaluated the presentations of the panelists. Ulvi Babasoy analyzed Aitmatov's prose in the context of the father phenomenon, war, mythology, and the aesthetics of introspection. Ulvi Babasoy was presented with a plaque from the Education Counsellorship of the Turkish Embassy in Azerbaijan. At the conclusion, an exhibition of artwork created by the lyceum's students based on motifs from Chingiz Aitmatov's works was displayed.

## PRELIMINARY DISCUSSION OF MASTER'S THESIS IN LANGUAGES DEPARTMENT

On May 12, a preliminary discussion of the dissertation work titled "Pronouns in Khatai Tabrizi's 'Yusuf and Zuleykha'" by Adika Almammadova Parviz gizi, a student majoring in Azerbaijani language, was held in the Languages Department of the Department of Languages and Literature.

The meeting was opened by the department coordinator Dr. Sevinj Gambarova, who familiarized the committee members with the graduate student's documents. Then, Adika Almammadova provided comprehensive information about the relevance of the topic, the object of research, goals and objectives, structure and chapters, scientific novelty, obtained results, referenced sources, etc.

The scientific supervisor of the dissertation, Dr. Reyhan Madatova, spoke about the reasons for addressing the topic, the process of completing the dissertation, research methods, and more. Meeting participants addressed their questions to the graduate student, shared their opinions and offered their recommendations. The dissertation work was considered satisfactory and it was decided to advance it to the next stage.

# "İNCİ HOTEL"- DƏ TƏLƏBƏLƏR ÜÇÜN İNFORMASİYA-TƏCRÜBƏ SESSİYASI

# INFORMATION AND PRACTICAL SESSION FOR STUDENTS AT "INCI HOTEL"

Mayın 12-də Xəzər Universiteti Konfrans və İstirahət Mərkəzinin Buzovnadakı "İnci Hotel"- də İqtisadiyyat və menecment fakültəsinin Turizm işinin təşkili ixtisası üzrə təhsil alan 4-cü kurs tələbələri üçün informasiya-təcrübə sessiyası təşkil edildi.

"İnci Hotel"-in təcrübəli əməkdaşı Cabir Feyzullayev müəssisənin fəaliyyəti, strateji idarəetmə prinsipləri və xidmət standartları haqqında ətraflı məlumat verdi. Karyera inkişafı prosesində əldə etdiyi peşəkar təcrübələri və sektordakı uğur faktorlarını tələbələrlə bölüşdü.



*Cabir Feyzullayev*

İnteraktiv sessiya ərzində tələbələr sahəyə dair aktual suallar verərək, müzakirələrdə fəal iştirak etdilər. Onlar otelçilik sənayesində nəzəri biliklərin praktiki tətbiqi, müştəri məmnuniyyətinin təmin edilməsi strategiyaları və müasir otel idarəçiliyinin incəlikləri barədə dəyərli məsləhətlər aldılar.

Tədbirdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva çıxış edərək, tu-

On May 12, an information and practical session was organized for 4th-year students studying Tourism Management at the School of Economics and Management of Khazar University at the "Inci Hotel" of the University's Conference and Recreation Center in Buzovna.

Jabir Feyzullayev, an experienced staff member of "Inci Hotel" gave detailed information on the activity, strategical management principles and service standards of the establishment. He shared his professional experiences gained during his career development process and success factors in the sector with the students.

During the interactive session, students actively participated in discussions by asking relevant questions about the field. They received valuable advice on the practical application of theoretical knowledge in the hotel industry, strategies for ensuring customer satisfaction, and the intricacies of modern hotel management.



Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management, spoke at the event, discussing the importance of integrating theoretical knowledge with practical experience in the tourism sector and expressed her gratitude to the hotel management for their support.

After the theoretical part concluded, a comprehensive tour of the hotel's infrastructure and service areas was organized for the students.



rizm sektorunda nəzəri biliklərlə praktiki təcrübənin inteqrasiyasının əhəmiyyətindən danışdı və otel rəhbərliyinə dəstəkləri üçün təşəkkürünü bildirdi.

Nəzəri hissədən sonra tələbələr üçün otelin infrastrukturu və xidmət zonalarına dair maraqlı ekskursiya təşkil olundu.



# "ÜNSİYYƏT BACARIQLARININ İNKİŞAFI" MÖVZUSUNDA TƏDBİR

Mayın 13-də Xəzər Universitetinin Nərimanov kampusunda İctimai Televiziyanın "Ustad dərsi" və İctimai Radionun "Can, Azərbaycan" verilişlərinin aparıcısı, jurnalist Pərvanə Nadirqızının iştirakı ilə "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda tədbir keçirilmişdir. Universitetin Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova tədbiri açaraq, bu istiqamətdə təşkil edilən görüşlərin məqsədi, faydaları barədə məlumat vermiş, qonağı təqdim etmişdir.

Jurnalist Pərvanə Nadirqızı ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üsulları, onların tətbiqi qaydaları, kommunikasiya prosesindəki əhəmiyyəti, işgüzar həyatdakı rolu, ünsiyyət prosesində ən mühüm amillər, mütaliənin faydaları və s.barədə həm nəzəri bilikləri, həm öz şəxsi təcrübəsini auditoriya ilə bölüşmüş, bu istiqamətdə keçdiyi inkişaf mərhələləri barədə əhatəli şəkildə bəhs etmişdir.

Tədbirdə Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova, Dillər və ədəbiyyatlar departamentinin müəllimləri Dr. Reyhan Mədətova, Dr. Qardaşxan Əzizxanlı, Dr. Mədinə Karahan, Elm və Təhsil Nazirliyinin "Azərbaycan dili və ədəbiyyat" elmi jurnalının baş redaktoru Gülnar Əliyeva çıxış edərək, öz fikirlərini bölüşmüşlər.

Təqdim edilən mövzu tələbələrin marağına səbəb olmuş, sualları cavablandırılmış, görüş müzakirələrlə davam etmişdir.

Sonda qonağa Xəzər Universitetinin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyevin imzası ilə "Təşəkkürnamə" təqdim edilmişdir.

# EVENT ON "DEVELOPMENT OF COMMUNICATION SKILLS"

On May 13, an event on "Development of Communication Skills" was held at the Narimanov campus of Khazar University with the participation of Parvana Nadirqizi, journalist and host of Public Television's "Master Class" and Public Radio's "Can, Azərbaycan" ("My Soul, Azerbaijan") programs. The coordinator of the Languages section of the Department of Languages and Literature of the University, Dr. Sevinj Gambarova, opened the event by providing information about the purpose and benefits of meetings organized in this direction, and introduced the guest.

Journalist Parvana Nadirqizi shared both theoretical knowledge and her personal experience with the audience about methods of developing communication skills, their application rules, importance in the communication process, role in business life, the most important factors in the communication process, benefits of reading, etc., and comprehensively discussed the developmental stages she went through in this direction.

Deputy Dean of the School of Humanities, Education and Social Sciences Parvin Karimova, Department of Languages and Literature lecturers Dr. Reyhan Madatova, Dr. Gardashkhan Azizkhanli, Dr. Madina Karahan, and Editor-in-Chief of the Ministry of Science and Education's scientific journal "Azerbaijani language and literature" Gulnar Aliyeva spoke at the event and shared their thoughts.

The presented topic aroused the interest of students, their questions were answered, and the meeting continued with discussions.

At the end, a "Certificate of Appreciation" signed by Prof. Muhammad Nuriyev, acting rector of Khazar University, was presented to the guest and commemorative photos were taken.

# DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU ELMİ KONFRANSDA

# LANGUAGES DEPARTMENT COORDINATOR AT SCIENTIFIC CONFERENCE

Mayın 14-də Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova Bakı Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi münasibətilə "Azərbaycan filoloji fikri çağdaş tədqiqatlarda" mövzusunda keçirilmiş elmi konfransda iştirak etmişdir.

Dr. Sevinc Qəmbərovanın "Türk dillərində ahəng qanununun ifadə formaları" mövzusunda etdiyi məruzə maraqla qarşılanmış, suallar verilmişdir. Məruzəçi türk dillərinin dəmir qanunu hesab edilən ahəng qanununun növləri (palatal, labial), işlənmə arealı, qədim türk yazılı abidələrinin dilində ahəngin möhkəmliyi, saitlərin ahənginə görə müəyyən samitlərin iki variantda işlənməsi, müasir türk dillərində və dialektlərində bu qanunun hansı formalarda qorunub saxlanıldığı və s. barədə bəhs etmişdir.

On May 14, Dr. Sevinc Gambarova, coordinator of the Languages Department at the Department of Languages and Literature, participated in a scientific conference held at Baku State University on the theme "Azerbaijani Philological Thought in Contemporary Research" dedicated to the 102nd anniversary of National Leader Heydar Aliyev's birth.

Dr. Sevinc Gambarova's presentation on "Forms of Expression of the Law of Harmony in Turkic Languages" was received with interest and followed by questions. The speaker discussed the types of harmony law (palatal, labial) considered the iron law of Turkic languages, its area of usage, the strength of harmony in ancient Turkic written monuments, the use of certain consonants in two variants according to vowel harmony, and how this law is preserved in various forms in modern Turkic languages and dialects.



*Sevinc Qəmbərova*

## XƏZƏR UNİVERSİTETİ İSTANBULDA KEÇİRİLƏN TƏHSİL SƏRGİSİNDƏ TƏMSİL OLUNDU

## KHAZAR UNIVERSITY REPRESENTED AT EDUCATION EXHIBITION HELD IN ISTANBUL

Mayın 3-5-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Jalə Məmmədova və Beynəlxalq əlaqələr üzrə (ərəb dünyası) rektorun müşaviri Əhməd Elaydi İstanbulda işgüzar səfərdə olublar. Səfər çərçivəsində mayın 3-də EduX və StudyFans təşkilatçılığı ilə keçirilən Ərəb Tələbələr üçün Təhsil Sərgisində Xəzər Universiteti uğurla təmsil olunub.

On May 3-5, Jalə Mammadova, Coordinator of the International Relations Department of Khazar University, and Ahmad Elaydi, Rector's Advisor on International Relations (Arab World), were on a business trip to Istanbul. Within the framework of the visit, Khazar University was successfully represented at the Education Exhibition for Arab Students held on May 3, organized by EduX and StudyFans.




Sərgidə Xəzər Universitetinin xüsusi stendi qurulmuş və ərəb ölkələrindən gələn yüzlərlə abituriyentə universitetin təhsil imkanları, ixtisasları, təqaüd proqramları və beynəlxalq tələbələr üçün yaradılmış şərait, eyni zamanda Nailəxanım təqaüd proqramı, onun imkanları və qəbul şərtləri barədə ətraflı məlumat verilmişdir. "Xəzər"in əməkdaşları, eyni zamanda, sərgi iştirakçılarının əlaqə məlumatlarını toplayaraq, gələcəkdə onlara Xəzər Universitetində təhsil almaqla bağlı ətraflı məlumat vermək üçün ilkin addımlar atıblar.

A special stand of Khazar University was established at the exhibition, and detailed information was provided to hundreds of prospective students from Arab countries about the university's educational opportunities, specializations, scholarship programs and facilities created for international students, as well as the Nailakhanim scholarship program, its opportunities and admission conditions. Khazar staff also collected contact information of exhibition participants and took preliminary steps to provide them with detailed information about studying at Khazar University in the future.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI ÇUKUROVA UNİVERSİTETİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ TƏDBİRDƏ

Mayın 5-9-da Türkiyənin Çukurova Universitetində təşkil olunmuş 10-cu Beynəlxalq Əməkdaşlıq Həftəsində (International Staff Week) Xəzər Universitetini Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Seyran Əliyeva təmsil etmişdir.

Proqram çərçivəsində beynəlmiləlləşmə, KA171 layihələri, Erasmus+ proqramında tətbiq edilən yeni anlayışlar – EWP, inklüzivlik, Avropa Universitetləri Alyansları və Birləşmiş İntensiv Proqramlar (BIP-lər) kimi mövzularda seminarlar və praktik sessiyalar təşkil olunmuşdur. Müxtəlif ölkələrdən olan iştirakçılar təmsil etdikləri ali təhsil müəssisələrinin uğurlu təcrübələrini və yenilikçi yanaşmalarını təqdim etmiş, qarşılıqlı fikir mübadiləsi aparmışlar.

Tədbir çərçivəsində iştirakçılar, həmçinin, Çukurova Universitetinin müxtəlif fakültə və şöbələrinin fəaliyyəti, təşəbbüsləri və iş prinsipləri ilə yaxından tanış olmuşlar.

Seyran Əliyeva "Ali təhsil müəssisələrində beynəlmiləlləşmə strategiyaları və bu sahədə mövcud çətinliklərin aradan qaldırılması" mövzusunda təqdimatla çıxış etmişdir.

## KHAZAR UNIVERSITY STAFF MEMBER PARTICIPATES IN INTERNATIONAL EVENT HELD AT CUKUROVA UNIVERSITY

A staff member from Khazar University participated in the 10th International Staff Week organized at Cukurova University in Türkiye on May 5-9, 2025. Seyran Aliyeva, coordinator of the International Relations Department at Khazar University, represented the institution at this event.

Within the framework of the program, seminars and practical sessions were organized on topics such as internationalization, KA171 projects, new concepts implemented in the Erasmus+ program – EWP, inclusivity, European Universities Alliances, and Blended Intensive Programs (BIPs). Participants from various countries presented successful practices and innovative approaches of the higher education institutions they represent and engaged in mutual exchange of ideas. During the event, participants also became closely acquainted with the activities, initiatives, and working principles of various faculties and departments of Cukurova University.

Seyran Aliyeva delivered a presentation on "Internationalization strategies in higher education institutions and addressing existing challenges in this field."



# İSTANBUL BEYKENT UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# DELEGATION FROM ISTANBUL BEYKENT UNIVERSITY AT KHAZAR




*İsmail Erkan Çelik, Hamlet İsaxanlı*

Mayın 13-də Xəzər Universitetində Türkiyənin İstanbul Beykent Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə İstanbul Beykent Universitetinin Mütevelli heyətinin sədri Dr. İsmail Erkan Çelik, rektoru Prof. Dr. Volkan Öngel, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Aybala Yavuzarslan və universitetin Tələbə dekanlığı koordinatoru Serhat Butur, Xəzər Universitetindən isə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, fakültə dekanları və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları iştirak ediblər.

Görüş zamanı iki universitet arasında təhsil sahəsində əməkdaşlıq imkanları, eləcə də qarşılıqlı maraq doğuran digər sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub. Tərəflər akademik əlaqələrin inkişaf etdirilməsi və davamlı əməkdaşlığın qurulması istiqamətində fikir mübadiləsi aparıblar.

Tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Xəzər Universiteti haqqında təqdimatla çıxış edərək, qonaqlara universitetin tarixi, beynəlxalq əməkdaşlıqları və imkanları barədə geniş məlumat verib.

Görüş çərçivəsində Xəzər Universiteti və İstanbul Beykent Universiteti arasında Anlaşma Memorandumu imzalanıb. Bu sənəd birgə layihələrin həyata keçirilməsi və ikitərəfli tərəfdaşlığın qurulmasına əsas yaradır.

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.

A meeting with a delegation from Istanbul Beykent University of Türkiye was held at Khazar University on May 13, 2025.

The meeting was attended by Dr. İsmail Erkan Çelik, Chairman of the Board of Trustees, Prof. Dr. Volkan Öngel, Rector of Istanbul Beykent University, Aybala Yavuzarslan, Head of International Relations Department, and Serhat Butur, Coordinator of the university's Student Deanship. From Khazar University, Prof. Acad. Hamlet Isakhanli, founder of the university and Chairman of the Board of Directors and Trustees, Prof. Muhammad Nuriyev, Acting Rector, faculty deans and staff of the International Relations Department participated.

During the meeting, opportunities for cooperation in the field of education between the two universities were discussed, as well as opportunities for implementing joint projects in other areas of mutual interest. The parties exchanged views on developing academic relations and establishing sustainable cooperation.

At the event, Fatima Valiyeva, Head of the International Relations Department, gave a presentation about Khazar University, providing the guests with extensive information about the university's history, international collaborations, and opportunities.

Within the framework of the meeting, a Memorandum of Understanding was signed between Khazar University and Istanbul Beykent University. This document provides the basis for implementing joint projects and establishing bilateral partnerships.

At the end of the meeting, gifts were presented and commemorative photos were taken.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ŞİMALİ KİPRDƏ KEÇİRİLMİŞ BEYNƏLXALQ ƏCZAÇILIQ KONQRESİNDƏ

Şimali Kipr Türk Cümhuriyyətinin Famagusta şəhərində yerləşən Doğu Akdeniz Universiteti Əczaçılıq fakültəsinin təşkilatçılığı ilə mayın 14-də Beynəlxalq Əczaçılıq Konqresi -2025 (IPSC 2025) keçirilmişdir. Konqresdə dünyanın 20-dən çox ölkəsindən elm adamları, əczaçılıq və biotibbi tədqiqat sahələrində çalışan mütəxəssislər iştirak etmişdir. Azərbaycanı bu nüfuzlu beynəlxalq elmi konqresdə Xəzər Universitetinin Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova, departamentin dosenti Dr. Cavid Ocaqi və Fizika və elektronika departamentinin müdiri Dr. Fəridə Tatardar təmsil etmişlər.

Konqres zamanı Dr. Cəmalə Eldarova "Azərbaycan mənşəli çay nümunələrinin genetik müxtəlifliyinin və farmakoloji xüsusiyyətlərinin tədqiqi" ("Exploring the genetic diversity and pharmacological properties of Azerbaijani tea accessions") adlı məruzəsində Azərbaycan mənşəli çay nümunələrinin genetik müxtəlifliyinə və onların farmakoloji təsirlərinə, yerli çay nümunələrinin yüksək antioksidant potensialı barədə aparılan molekulyar və biokimyəvi analizlərinə dair nəticələrini bölüşmüşdür. Məruzə xüsusilə təbii mənşəli dərman vasitələrinin hazırlanmasında çay bitkisinin əhəmiyyətinə diqqət çəkmişdir.

Dr. Cavid Ocaqi "Arpa və üzüm bitkisində β-qlükan və resveratrolun genetik müxtəlifliyi və sağlamlığa faydası" ("Genetic variation and health benefits of β-glucan and resveratrol in barley and grape wine") adlı məruzəsində arpa və üzüm növlərində bioaktiv maddələrin (β-qlukan və resveratrol) genetik dəyişkənliyini və insan sağlamlığına təsirlərini izah etmişdir. Onun tədqiqatı arpa və üzüm bitkilərinin molekulyar səviyyədə öyrənilməsi və qidalanmada istifadəsi baxımından böyük əhəmiyyət daşıyır. Dr. Fəridə Tatardar konqresdə "Elektrospin nanoliflər: Farmoseptik və biotibbi tətbiqləri" ("Electrospun nanofibers: Pharmaceutics and biomedical applications") adlı məruzə ilə çıxış etmişdir. Elektrospin nanoliflər son illərdə farmasevtik və biotibbi sahələrdə böyük maraq doğurur. Bu liflər dərman daşıma sistemləri, yara sarğıları və toxuma mühəndisliyi kimi tətbiq sahələrində geniş istifadə olunur. Bu səbəbdən nanoliflər gələcəkdə tibbi məhsulların inkişafında mühüm rol oynaya bilər.

Azərbaycanlı tədqiqatçıların təqdim etdiyi elmi nəticələr maraqla qarşılanmış və müzakirələrə səbəb olmuşdur. Konqres çərçivəsində bir sıra beynəlxalq akademik qurumlarla elmi əməkdaşlıq üçün ilkin razılaşmalar əldə olunmuşdur. Konqresin sonunda iştirakçılara sertifikat təqdim edilmişdir.

## KHAZAR UNIVERSITY STAFF MEMBERS PARTICIPATE IN INTERNATIONAL PHARMACEUTICAL CONGRESS HELD IN NORTHERN CYPRUS

The International Pharmaceutical Sciences Congress-2025 (IPSC 2025) was held on May 14, organized by the Faculty of Pharmacy at Eastern Mediterranean University located in Famagusta, Turkish Republic of Northern Cyprus. Scientists from more than 20 countries worldwide and specialists working in pharmaceutical and biomedical research fields participated in the congress.

Azerbaijan was represented at this prestigious international scientific congress by Dr. Jamala Eldarova, Director of the Department of Life Sciences at Khazar University, Dr. Javid Ojaghi, Assoc. Prof. of the department, and Dr. Farida Tatardar, Director of the Department of Physics and Electronics.

During the congress, Dr. Jamala Eldarova presented her research findings in a presentation titled "Exploring the genetic diversity and pharmacological properties of Azerbaijani tea accessions," sharing results of molecular and biochemical analyses regarding the genetic diversity of Azerbaijani tea samples and their pharmacological effects, as well as the high antioxidant potential of local tea samples. The presentation particularly highlighted the importance of tea plants in the preparation of natural origin pharmaceuticals. Dr. Javid Ojaghi explained the genetic variation of bioactive compounds (β-glucan and resveratrol) in barley and grape varieties and their effects on human health in his presentation titled "Genetic variation and health benefits of β-glucan and resveratrol in barley and grape wine." His research carries great significance in terms of molecular-level study of barley and grape plants and their use in nutrition.

Dr. Farida Tatardar delivered a presentation titled "Electrospun nanofibers: Pharmaceutics and biomedical applications" at the congress. Electrospun nanofibers have generated significant interest in pharmaceutical and biomedical fields in recent years. These fibers are widely used in application areas such as drug delivery systems, wound dressings, and tissue engineering. Therefore, nanofibers may play an important role in the development of medical products in the future.

The scientific results presented by Azerbaijani researchers were received with interest and sparked discussions. Within the framework of the congress, preliminary agreements for scientific cooperation with several international academic institutions were reached. At the conclusion of the congress, certificates were presented to participants.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ "*COMMONSPACE.EU*"DA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Opinion: How to Take the Most from the Present De-Facto Peace Period in Armenia-Azerbaijan Relations" ("Ermənistan-Azərbaycan münasibətlərində indiki de-fakto sülh dövründən ən yaxşı şəkildə necə istifadə etmək olar") mövzusunda məqaləsi "*Commonspace.eu*"da dərc edilmişdir.

Qeyd edək ki, "*Commonspace.eu*" 1997-ci ilin iyulunda Londonda yaradılmış LINKS şəbəkəsinin bir hissəsi olan Hollandiyanın Haaqa şəhərində qeydiyyatdan keçmiş və əsası olan LINKS Europe fondunun fəaliyyətidir. Məqaviləyə keçid: *Opinion: How to Take the Most from the Present De-Facto Peace Period in Armenia-Azerbaijan Relations | commonspace.eu*

## ARTICLE BY LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON "*COMMONSPACE.EU*"

An article by Dr. Vasif Huseynov, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Opinion: How to Take the Most from the Present De-Facto Peace Period in Armenia-Azerbaijan Relations", has been published in "*Commonspace.eu*".

It is important to note that "*Commonspace.eu*" is an activity of LINKS Europe, a foundation registered and based in The Hague, the Netherlands, and which forms a part of the LINKS network, established in London in July 1997. Link to article: *Opinion: How to Take the Most from the Present De-Facto Peace Period in Armenia-Azerbaijan Relations | commonspace.eu*

KRİTER

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ "*KRİTER*" JURNALINDA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Kıbrıs Sorunsalı ve Türk Dünyasının Geleceği" ("Kipr problemi və Türk dünyasının gələcəyi") adlı məqaləsi Türkiyənin aylıq "*Kriter*" jurnalında ( may 2025-ci il, sayı 101) işıq üzü görüb. Jurnal Türkiyədə nüfuzlu dərgi hesab olunur.

Müəllif məqalədə Türk Dövlətlər Təşkilatının gələcəyi, qlobal geosiyasi dəyişikliklərin Türk dünyasına təsiri, informasiya və enerji siyasətindəki yeniliklərin milli suverenliyə və dövlətçilik ənənələrinə mümkün təsirləri kimi məsələlərə toxunmuşdur.

## ARTICLE BY HEAD OF DEPARTMENT IN JOURNAL "*KRITER*"

Assoc.Prof. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, has contributed an article "The Cyprus Problem and the Future of the Turkish World" published in the Turkish monthly journal "*Kriter*" (May 1, 2025, Volume 10, No 101). The journal is recognized as an influential publication in Türkiye.

In the article, the author touched upon issues such as the future of the Organization of Turkic States, the impact of global geopolitical changes on the Turkic world, and the possible impact of innovations in information and energy policy on national sovereignty and statehood traditions.

*Link: https://kriterdergi.com/yazar/orkhan-valiyev/kibris-sorunsali-ve-turk-dunyasinin-gelecegi*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ *"FRACTAL AND FRACTIONAL"* JURNALINDA

fractal and fractional

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE IN *"FRACTAL AND FRACTIONAL"* JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Fractal Sturm-Liouville Theory" ("Fractal Şturm-Liuvill nəzəriyyəsi") adlı məqaləsi *"Fractal and Fractional"* (2025, Cild 9, № 5) jurnalında dərc olunmuşdur. Qeyd edək ki, "Fractal and Fractional" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə fraktal hesablamanın qısa icmalı verilir və onun ümumiləşdirilmiş Şturm-Liuvill nəzəriyyəsinə tətbiqi tədqiq edilir. İşdə həm fraktal homojen, həm də qeyri-homogen Şturm-Liuvill məsələləri təqdim edilir və nəzəriyyənin optikaya tətbiqləri araşdırılır. Fraktal nəzəriyyənin qərarlara təsirini göstərmək və fraktal strukturlar üçün yeni modellər təklif etmək məqsədi ilə misallar və qrafiklər əlavə edilir.

An article titled "Fractal Sturm-Liouville Theory" by Professor Bilender Allahverdiyev from the Mathematics Department of Khazar University has been published in the journal *"Fractal and Fractional"* (2025, Volume 9, No. 5). It should be noted that the journal "Fractal and Fractional" is indexed in the "Web of Science" and "Scopus" databases.

This paper provides a short summary of fractal calculus and its application to generalized Sturm-Liouville theory. It presents both the fractal homogeneous and non homogeneous Sturm-Liouville problems and explores the theory's applications in optics. We include examples and graphs to illustrate the effect of fractal support on the solutions and propose new models for fractal structures.

*https://www.mdpi.com/2504-3110/9/5/268*
*https://www.mdpi.com/journal/fractalfract*

Ecotoxicology

## XƏZƏR UNİVERSİTETİNİN MƏZUNUNUN MƏQALƏSİ *"ECOTOXİCOLOGY"* JURNALINDA

## KHAZAR UNIVERSITY GRADUATE'S ARTICLE IN *"ECOTOXICOLOGY"* JOURNAL

Xəzər Universitetinin Tarix və coğrafiya ixtisası üzrə 2016-cı il bakalavr məzunu, hal-hazırda Koreya Universitetinin doktorantı, Koreya Dövlət Təqaüdçüsü Günay Kərimovanın "Cellular and individual toxicity of diflubenzuron for the chronic exposure in Daphnia magna: focus on oxidative stress, chitin content, and reproductive outcomes" ("Oksidativ stress, xitin tərkibi və reproduktiv nəticə üzrə fokuslanmaqla diflubenzuronun hüceyrə və fərdi toksikliyinə Daphnia magna-da xroniki təsirlənmə") adlı məqləsi *"Ecotoxicology"* jurnalında dərc olunmuşdur (2025, Cild 34, sayı 4). Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müəllimi Rövşən Abbasov həmin məqalənin həmmüəllifidir.

Məqalədə ətraf mühitlə əlaqəli konsentrasiyalarda su ekosistemlərində əsas su orqanizmi olan su birəsinə (Daphnia magna) qarşı diflubenzuron (DFB) kimi həşərat böyümə tənzimləyicilərinin zərərli təsirləri araşdırılmışdır. Qeyd edək ki, məqalənin dərc olunduğu *"Ecotoxicology"* jurnalı "Scopus", "Web of Science (Science Citation Index Expanded - SCIE)" və "PubMed" verilənlər bazalarında indekslənib.

An article titled "Cellular and individual toxicity of diflubenzuron for the chronic exposure in Daphnia magna: focus on oxidative stress, chitin content, and reproductive outcomes" by Gunay Karimova, a 2016 bachelor's graduate in History and Geography from Khazar University, currently a doctoral student at Korea University and Korean Government Scholarship recipient, has been published in the *"Ecotoxicology"* journal (2025, Volume 34, Issue 4). Rovshan Abbasov, a faculty member of the Geography and Environment Department at Khazar University, is a co-author of the article.

The article investigates the harmful effects of insect growth regulators such as diflubenzuron (DFB) on water fleas (Daphnia magna), a key aquatic organism in water ecosystems, at environmentally relevant concentrations.

It should be noted that the *"Ecotoxicology"* journal, where the article was published, is indexed in "Scopus," "Web of Science (Science Citation Index Expanded - SCIE)," and "PubMed" databases.

*https://doi.org/10.1007/s10646-025-02897-6*

## XƏZƏR UNİVERSİTETİ İLƏ "AZƏRBAYCAN SƏRGİ TƏŞKİLATÇILARI ASSOSİASİYASI" ARASINDA MEMORANDUM İMZALANDI

## MEMORANDUM SIGNED BETWEEN KHAZAR UNIVERSITY AND "AZERBAIJAN EXHIBITION ORGANIZERS ASSOCIATION"

Mayın 14-də Bakı Ekspo Mərkəzində Xəzər Universiteti ilə Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) arasında qarşılıqlı əməkdaşlıq memorandumu imzalandı.

Tədbirdə ASTA-nın idarə heyətinin sədri Fərid Məmmədov, Xəzər Universitetinin rektor əvəzi Prof. Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva və fakültənin əməkdaşları iştirak etdilər.

Memorandumun imzalanması universitetin sərgi və təşkilati fəaliyyətlər sahəsində əməkdaşlığın genişləndirilməsi və tələbələrin praktiki təcrübə imkanlarının artırılması məqsədini daşıyır.

İmzalanma mərasimindən sonra Xəzər Universitetinin nümayəndə heyəti Bakı Ekspo Mərkəzində təşkil olunan sərgi ilə yaxından tanış oldular. Sərgidə təqdim olunan innovativ həllər və müasir texnologiyalar barədə ətraflı məlumat əldə etdilər.

On May 14, a memorandum of mutual cooperation was signed between Khazar University and Azerbaijan Exhibition Organizers Association (AEOA) at the Baku Expo Center.

The event was attended by Farid Mammadov, chairman of AEOA's board of directors, Prof. Muhammad Nuriyev, acting rector of Khazar University, Dr. Raziya Isayeva, dean of the School of Economics and Management, and faculty staff.

The signing of the memorandum aims to expand cooperation in the field of exhibition and organizational activities and to increase practical experience opportunities for students.

After the signing ceremony, the delegation from Khazar University closely familiarized themselves with the exhibition organized at the Baku Expo Center. They obtained detailed information about innovative solutions and modern technologies presented at the exhibition.

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU "ULUSLARARASI RUMELİ SOSİAL ELMLƏR KONQRESİ"NDƏ

## COORDINATOR OF LANGUAGES DIVISION PARTICIPATES IN "INTERNATIONAL RUMELI SOCIAL SCIENCES CONGRESS"

Mayın 15-də Xəzər Universiteti Dillər ə ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova Şimali Makedoniyanın Beynəlxalq Balkan Universitetində (IBU) "Uluslararası Rumeli Sosial Elmler Konqresi"ndə onlayn iştirak etmişdir. Dr.Sevinc Qəmbərova "Azərbaycan dili şivələri və özbək dilində ortaq fonetik xüsusiyyətlər" mövzusunda məruzə etmiş, verilən sualları cavablandırmışdır.

Məruzəçi qeyd etmişdir ki, qədim türk dilindən ayrılan və müxtəlif prinsiplərə əsaslanaraq ayrı-ayrı qruplarda birləşdirilən müasir türk dilləri arasında özünəməxsus cəhətlər ilə yanaşı, dilin bütün laylarında (fonetik, leksik və qrammatik) ortaq xüsusiyyətlər də qorunub saxlanılmaqdadır. Müəyyən xüsusiyyətlər vardır ki, hazırda ədəbi dil səviyyəsində öz işləkliyini itirmişdir, lakin dilin canlı arxivi hesab olunan şivələrində mühafizə olunmuşdur. Bu səbəbdən müasir özbək ədəbi dili ilə Azərbaycan dilinin şivələri müqayisəyə cəlb edilmiş və onların səs sistemində bir çox ortaq xüsusiyyətlər ortaya çıxarılmışdır.

On May 15, Dr. Sevinj Gambarova, coordinator of the Languages Division of the Department of Languages and Literature at Khazar University, participated online in the "International Rumeli Social Sciences Congress" held at the International Balkan University (IBU) in North Macedonia. Dr. Sevinj Gambarova presented a report on "Common Phonetic Features in Azerbaijani Dialects and the Uzbek Language" and responded to questions.

The speaker noted that modern Turkic languages, which separated from the ancient Turkic language and are grouped according to various principles, preserve common features across all linguistic layers (phonetic, lexical, and grammatical) alongside their distinctive characteristics. She pointed out that certain features have lost their functionality at the literary language level but are preserved in dialects, which are considered the living archives of the language. For this reason, modern Uzbek literary language and Azerbaijani dialects were compared, revealing many common features in their sound systems.

## XƏZƏR MAFİ KOORDİNATORU AYNUR QƏZƏNFƏRQIZI TƏLƏBƏLƏRİ İLƏ "MANQURT" TAMAŞASINDA

Mayın 18-də Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru Aynur Qəzənfərqızı tələbələri ilə birlikdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnələşdirilən "Manqurt" tamaşasına baxıblar.



Tamaşa boyunca hadisələrin milli-mənəvi dəyərlər axarında baş verməsi və obrazların psixoloji tutumu tələbələrdə dərin emosional təəssürat yaradıb. Tamaşadan sonra müəllimlə tələbələr arasında canlı və maraqlı fikir mübadiləsi baş tutub. Onlar "manqurtlaşma" anlayışının cəmiyyət və milli kimlik baxımından təhlükələrini müzakirə ediblər. Bu kimi mədəni tədbirlər tələbələrin yalnız nəzəri biliklərini deyil, həm də praktik baxışlarını zənginləşdirərək, onların mədəni irsə və bədii düşüncəyə daha dərindən yanaşmasına imkan yaradır.

**Nigar Ələsgərli**
*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası, 1-ci kurs*

## KHAZAR MAFI COORDINATOR AYNUR GAZANFARQIZI ATTENDS "MANGURT" PERFORMANCE WITH STUDENTS

On May 18, Khazar University's Institute of Cultural Anthropology and Folklore (MAFI) coordinator Aynur Gazanfarqizi attended the "Mangurt" performance staged at the Azerbaijan State Academic National Drama Theater together with her students.

Throughout the performance, the unfolding of events within the framework of national and spiritual values and the psychological depth of the characters created a profound emotional impression on the students. After the performance, a lively and interesting exchange of ideas took place between the teacher and students. They discussed the dangers of the concept of "mangurtization" in terms of society and national identity. Such cultural events enrich not only students' theoretical knowledge but also their practical perspectives, enabling them to approach cultural heritage and artistic thinking more deeply.

**Nigar Alasgarli**
*Azerbaijani Language and Literature Teaching specialty, 1st year*

# BAYTARLIQ TƏBABƏTİ DEPARTAMENTİ TƏLƏBƏLƏRİNİN CASPİAN AQRO SƏRGİSİNDƏ İŞTİRAKI



# PARTICIPATION OF VETERINARY MEDICINE DEPARTMENT STUDENTS IN CASPIAN AGRO EXHIBITION

Mayın 13-16-da Bakı Ekspo Mərkəzində Xəzər regionunun kənd təsərrüfatı və qida sənayesi sahəsində ən böyük sərgisi 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi - Caspian Aqro təşkil edilmişdir. Bu sərgi Azərbaycanın aqrar-sənaye kompleksində mütərəqqi texnologiyaların tətbiqi, kənd təsərrüfatı sahəsinin yerli və xarici mütəxəssisləri arasında təcrübə mübadiləsi və qarşılıqlı faydalı işgüzar əlaqələrin gücləndirilməsi üçün bazarda praktiki vasitə kimi özünü doğrultmuşdur.

Caspian Aqro sərgisi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Sərgi, həmçinin, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası tərəfindən dəstəklənir.

Xəzər Universitetinin Baytarlıq təbabəti departamentinin tələbələri koordinator Çiçək Əliyeva və fənn müəllimlərinin rəhbərliyi altında sərginin müxtəlif günlərində iştirakçı qismində kənd təsərrüfatına aid stendlərlə yaxından tanış olmuş, həmçinin, baytarlıq sahəsi üzrə müxtəlif bilgilər əldə etmişlər.

From May 13-16, the largest exhibition in the Caspian region's agriculture and food industry sector – the 18th Azerbaijan International Agricultural Exhibition - Caspian Agro was organized at Baku Expo Center. This exhibition has proven itself as a practical tool in the market for the implementation of progressive technologies in Azerbaijan's agro-industrial complex, experience exchange between local and foreign specialists in the agricultural sector, and strengthening mutually beneficial business relations.

The Caspian Agro exhibition is held with the organizational support of the Ministry of Agriculture of the Republic of Azerbaijan. The exhibition is also supported by the Food Safety Agency of the Republic of Azerbaijan, the Small and Medium Business Development Agency, the Export and Investment Promotion Agency, the National Confederation of Entrepreneurs (Employers) Organizations, the UN Food and Agriculture Organization, and the Azerbaijan Exhibition Organizers Association.

Students of Khazar University's Veterinary Medicine Department, under the guidance of coordinator Çiçək Əliyeva and course teachers, participated as attendees on various days of the exhibition, becoming closely acquainted with agricultural stands and obtaining various knowledge in the field of veterinary medicine.

## "XƏZƏR"İN TƏLƏBƏSİNİN "İÇ SƏSİM" ADLI SƏRGİSİ




*Hamlet İsaxanlı, Asiya Məmmədova*

Mayın 16-da Memarlıq və Dizayn Departamentinin təşkilatçılığı ilə Təsviri incəsənət müəllimliyi ixtisasının 3-cü kurs tələbəsi Asiya Məmmədovanın "İç səsim" adlı sərgisi nümayiş olunmuşdur.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Memarlıq və dizayn departamentinin müdiri Dos. Şəhla Abbasova çıxış etdilər. Sərgiyə dəvət olunmuş fəxri qonaqlar - Beynəlxalq Qalereyanın direktoru Elnurə İsgəndərova, Beynəlxalq Akvarel Cəmiyyətinin Sumqayıt filialının rəhbəri İntiqam Cəfərov və rəssam-şair Nəvai Məmmədoğluya da söz verildi.

Asiya Məmmədova nümayiş etdirdiyi əsərlərində insanın iç dünyasında baş verən ziddiyyətləri, səssiz duyğuları və şəffaf düşüncə axınını təsvir etmişdir.

Bu cür tədbirlər yaradıcı gənclərin potensialını üzə çıxarmaq və qiymətləndimək üçün imkan yaradır.

## ASIYA MAMMADOVA'S "INNER VOICE" EXHIBITION

On May 16, an exhibition titled "Inner Voice" by Asiya Mammadova, a third-year student majoring in Fine Arts Teaching, was displayed under the organization of the Department of Architecture and Design.

At the event, speeches were delivered by Khazar University's founder and Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, Dean of the School of Science and Engineering Fakhranda Afandiyeva, and Head of the Department of Architecture and Design Assoc. Prof. Shahla Abbasova. Invited honorary guests - Director of the International Gallery Elnura Isgandarova, Head of the Sumgayit Branch of the International Watercolor Society Intiqam Jafarov, and artist-poet Navai Mammadoghlu were also given the floor.

In her exhibited works, Asiya Mammadova has depicted the contradictions occurring in the human inner world, silent emotions, and transparent flow of thought.

Such events create opportunities to reveal and evaluate the potential of creative young people.



*Rənglərin eşqi*



*İllərə baxış*

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# *AMEA-NIN ƏDƏBİYYAT İNSTİTUTU İLƏ RUMINİYANIN BEYNƏLXALQ MİHAY EMİNESKU AKADEMİYASI ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB*




*İon Deakonesku, İsa Həbibbəyli*

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli rumın şairi, Beynəlxalq Mihay Eminesku Akademiyasının prezidenti professor İon Deakonesku ilə görüş keçirilib.

Görüşdə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli, Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare, AMEA-nın Azad Həmkarlar İttifaqının sədri siyasi elmlər üzrə fəlsəfə doktoru Sənan Həsənov, Azərbaycan Yazıçılar Birliyinin (AYB) beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu, Ədəbiyyat İnstitutunun əməkdaşları və gənc elmi işçilər iştirak ediblər.

Tədbirdə çıxış edən akademik İsa Həbibbəyli bugünkü görüşlə müstəqillik illərində AMEA-da ilk dəfə Rumıniya ilə elmi, ədəbi əlaqələrin qurulması istiqamətində addımın atıldığını söyləyib. Qeyd edib ki, görüşün keçirilməsində məqsəd həm professor İon Deakoneskunun yaradıcılığı ilə tanış olmaq, həm də Beynəlxalq Mihay Eminesku Akademiyası ilə əməkdaşlıq müqaviləsi imzalamaqdır.

Akademik İsa Həbibbəyli bildirib ki, keçmiş sovet hakimiyyəti illərində Rumıniyadan ziyalılar, elm xadimləri Azərbaycana səfər etsələr də, bu, daimi xarakter almamış, müstəqillik dövründə isə elmi əməkdaşlıq müqaviləsi imzalanmamışdır. AMEA prezidenti vurğulayıb ki, Beynəlxalq Mihay Eminesku Akademiyası Rumıniyada nüfuzlu qurumlardan biridir və Avropada da qəbul olunur, dünyanın bir çox elmi təşkilatı ilə əməkdaşlıq edir, hər il poeziya festivalları təşkil edir, kitab və monoqrafiyalar, elmi jurnallar nəşr edir.

Bugünkü müqavilənin Rumıniya ilə Azərbaycan arasında elmi əlaqələrin qurulmasında ilk körpü olacağını deyən akademik İsa Həbibbəyli artıq oxucuların rumın yazıçıların ədəbi yaradıcılığı ilə tanışlığa başladığını, AYB-nin katibi Səlim Babullaoğlu tərəfindən İon Deakoneskunun "Müsahibə" seçmə şeirlər toplusunun Azərbaycan dilinə tərcümə edildiyini diqqətə çatdırıb. Şairin 35 şeirinin toplandığı toplu

ilə tanış olduğunu deyən akademik İsa Həbibbəyli ədibin yaradıcılığında son illərdə Avropada baş vermiş ədəbi proseslərin əksini tapdığını söyləyib. Qeyd edib ki, professor İon Deakoneskunun yaradıcılığında naturalizmin əlamətləri müşahidə olunsa da, üstünlük təşkil etmir və şair daha çox sürrealizm ədəbi cərəyanında yazıb yaradır.

AMEA rəhbəri rumın ədəbiyyatının görkəmli siması İon Deakoneskunun bu günlərdə AYB-nin "Məhəmməd Füzuli medalı" ilə təltif olunması münasibətilə təbriklərini çatdırıb.

Akademik İsa Həbibbəyli, həmçinin qonağa rəhbərlik etdiyi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun tarixi, görkəmli simaları, fəaliyyət istiqamətləri, eləcə də Türk dünyası, macar, bolqar, Şərq xalqları ədəbiyyatına dair aparılan tədqiqatlardan danışıb.

O cümlədən qeyd edib ki, bugünkü görüş və imzalanacaq müqavilə Rumıniyada yaşayan türklərin ədəbi yaradıcılığını da öyrənməyə imkan verəcək, tərəflər birgə tədbirlər təşkil edəcək, kitablar, məqalələr ərsəyə gətirəcəklər.




*Vasile Soare*

Akademik İsa Həbibbəyli daha sonra qonağa AMEA-nın 80 illik yubileyini əks etdirən xatirə hədiyyələri, eləcə də Məhəmməd Füzuli haqqında Akademiyada işıq üzü görmüş nəşri və "Azərbaycan ədəbiyyatı antologiyası"nı təqdim edib.

Beynəlxalq Mihay Eminesku Akademiyasının prezidenti, şair, ədəbi tənqidçi, tərcüməçi İon Deakonesku çıxışında Azərbaycan Milli Elmlər Akademiyasında olmaqdan məmnunluğunu ifadə edib. O, müasir dövrdə əlaqələrin artıq real hadisələr formasında inkişaf etməsinin əhəmiyyətli olduğunu bildirib, rəhbərlik etdiyi Akademiyanın Nobel mükafatına namizəd vermək hüququ olduğunu diqqətə çatdırıb. İon Deakonesku gələn il Beynəlxalq Mihay Eminesku Akademiyası tərəfindən Azərbaycandan olan bir şairin Nobel mükafatına namizədliyinin irəli sürüləcəyini söyləyib.

Həmçinin şeirləri haqqında vurğuladığı orijinal fikirlərinə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib, Azərbaycan dilində çıxacaq növbəti kitabına AMEA rəhbərinin ön söz yazmasını rica edib. Rəhbərlik etdiyi Akademiyanın keçirdiyi festivallar haqqında məlumat verərək gələcək planlardan danışıb, gələn il Azərbaycanda Füzuli-Eminesku festivalının keçirilməsini təklif edib.

O, akademik İsa Həbibbəylinin Beynəlxalq Mihay Eminesku Akademiyası tərəfindən "Mihay Eminesku" medalı ilə təltif olunduğunu bildirib və mükafatı AMEA rəhbərinə təqdim edib.

Həmçinin Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soareyə də Beynəlxalq Mihay Eminesku Akademiyasının qızıl medalını və "Mədəniyyət səfiri" diplomunu təqdim edib.

Daha sonra Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare çıxış edərək ölkələrimiz arasında diplomatik münasibətlərdən danışıb, elmi, mədəni əlaqələrin daha geniş vüsət alması üçün bu cür tədbirin təşkilatçılarına təşəkkür edib.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli, professor Gülər Abdullabəyova, filologiya üzrə fəlsəfə doktoru Aytən Rüstəmova və AYB-nin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu isə çıxışlarında qurumlar arasında imzalanacaq müqavilənin əməkdaşlıq sahəsində daha səmərəli işlərin görülməsinə töhfə verəcəyini vurğulayıblar.

Çıxışlardan sonra Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Rumıniyanın Beynəlxalq Mihay Eminesku Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi akademik İsa Həbibbəyli və professor İon Deakonesku imzalayıblar.

**Gülnar Səma**

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*

*İctimaiyyətlə əlaqələr şöbəsi*

## ELM VƏ TƏHSİL NAZİRLİYİNİN "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ" ELMİ-METODİK JURNALININ TƏQDİMATI

Mayın 16-da Xəzər Universitetində Elm və Təhsil Nazirliyinin "*Azərbaycan dili və ədəbiyyat tədrisi*" elmi-metodik jurnalının və "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Dil siyasəti və milli kimlik: Tarixi irs, müasir yanaşmalar" adlı xüsusi buraxılışının təqdimatı keçirilmişdir. Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova gənc tədqiqatçılar üçün belə görüşlərin böyük faydasından danışmışlar. Jurnalın baş redaktoru vəzifəsini icra edən Gülnar Əliyeva jurnalın yaranması, tarixi, inkişafı, qəbul edilən məqalələrə qoyulan tələblər, jurnalın indeksləşdiyi beynəlxalq elmi bazalar və s. haqqında əhatəli çıxış etmiş və xüsusi buraxılışda məqalələri çap edilən müəlliflərə söz vermişdir.

AMEA Nəsimi adına Dilçilik İnstitutunun "Türk dilləri" şöbəsinin müdiri, Prof.İsmayıl Kazımov "Dilin axarı və ya müasir Azərbaycan dili nüfuzlu və suveren dillərdən biri kimi" mövzusunda, ADPU-nun "Azərbaycan dili və onun tədrisi texnologiyası" kafedrasının professoru Minaxanım Nuriyeva Təkləli "Dilimiz-qayğılarımız: mülahizələr, iradlar, təkliflər" mövzusunda, "*Azərbaycan dili və ədəbiyyat*" elmi-metodik jurnalının redaksiya heyətinin üzvləri, ADPU-nun "Ədəbiyyatın tədrisi texnologiyası" kafedrasının dosentləri

## PRESENTATION OF MINISTRY OF SCIENCE AND EDUCATION'S "TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE" SCIENTIFIC-METHODOLOGICAL JOURNAL

On May 16, a presentation of the Ministry of Science and Education's "*Teaching of Azerbaijani Language and Literature*" scientific-methodological journal and its special issue titled "Language Policy and National Identity: Historical Heritage, Contemporary Approaches," dedicated to the "Year of Constitution and Sovereignty," was held at Khazar University. Dr. Sevinj Qambarova, coordinator of the Languages Division of the Department of Languages and Literature, and Parvin Karimova, deputy dean of the School of Humanities, Education and Social Sciences, spoke about the great benefit of such meetings for young researchers. Gulnar Aliyeva, acting editor-in-chief of the journal, delivered a comprehensive presentation about the journal's establishment, history, development, requirements for accepted articles, international scientific databases where the journal is indexed, and gave the floor to authors whose articles were published in the special issue.

Professor Ismayil Kazimov, head of the "Turkic Languages" department at ANAS Nasimi Institute of Linguistics, spoke on "The Flow of Language or Modern Azerbaijani Language as One of the Prestigious and Sovereign Languages," Professor Minakhanim Nuriyeva Taklali from ASPU's "*Azerbaijani Language and Its Teaching Technology*" department presented on "Our Language - Our Concerns: Considerations, Opinions, Suggestions." Members of the editorial board of the "Azerbaijani Language and

- Bilal Həsənli və Soltan Hüseynoğlu çıxışlarında nəşrlə uzunmüddətli əməkdaşlıq təcrübələrindən söz açmış, jurnalın elm və təhsil mühitindəki rolunu yüksək qiymətləndirmişlər.

Bakı Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" kafedrasının müdiri, Prof. Mətanət Abdullayeva çıxışında jurnalın metodika sahəsindəki elmi əhəmiyyətini vurğulamış, gələcək elmi əməkdaşlıq imkanlarını yüksək qiymətləndirmişdir. Bakı Mühəndislik Universitetinin "Azərbaycan dili və pedaqogika" kafedrasının dosenti Zabitə Teymurlu və Xəzər Universitetinin müəllimi Dr. Sevinc Qəmbərova cıxış edərək, xüsusi buraxılışda dərc olunmuş "Akademik kommunikasiyada Azərbaycan dilinin yeri" mövzusunda məqalələrinin əsas məqamlarını təqdim etmiş, mövzunun aktuallığına və jurnalın elmi əhəmiyyətinə toxunmuşlar.

Tədbirdə jurnalın son illərdə baş redaktoru olmuş, hazırda isə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Xətai Rayon Komitəsinin sədri Sehran Səfərov çıxış edərək, nəşrin son dövrlərdəki fəaliyyəti barədə fikirlərini bölüşmüş, xüsusi buraxılışın elmi və ictimai əhəmiyyətini vurğulamış və jurnalın yaradıcı heyətinə uğurlar arzulamışdır.

Tədbirdə ADPU-nun "Ədəbiyyat" kafedrasının dosent əvəzi, Dr. Ulduz Qəhrəmanova, "Azərbaycan dili və onun tədrisi texnologiyası" kafedrasının müəllimi Aynur Bədəlova, "Müasir Azərbaycan dili" kafedrasının baş müəllimi, Dr.Sahilə İbrahimova, "Ədəbiyyatın tədrisi texnologiyası" kafedrasının baş müəllimi, Dr. Günel Hümmətova, Xəzər Universitetinin və Dünya məktəbinin müəllimləri, həmçinin magistrantlar, tələbələr, gənc tədqiqatçılar iştirak etmişlər.

Literature" scientific-methodological journal, Associate Professors Bilal Hasanli and Soltan Huseynoglu from ASPU's "Literature Teaching Technology" department, spoke about their long-term cooperation experience with the publication and highly evaluated the journal's role in the scientific and educational environment.

Professor Matanat Abdullayeva, head of Baku State University's "Teaching Methodology of Azerbaijani Language and Literature" department, emphasized the journal's scientific significance in the field of methodology and highly evaluated future scientific cooperation possibilities. Associate Professor Zabita Taymurlu from Baku Engineering University's "Azerbaijani Language and Pedagogy" department and Dr. Sevinj Qambarova, lecturer at Khazar University, presented the main points of their articles on "The Place of Azerbaijani Language in Academic Communication" published in the special issue, touching upon the topic's relevance and the journal's scientific importance.

Sehran Safarov, who served as the journal's editor-in-chief in recent years and currently chairs the Khatai District Committee of the Azerbaijan Education Workers' Free Trade Union, spoke at the event, sharing his thoughts on the publication's recent activities, emphasizing the scientific and social importance of the special issue, and wishing success to the journal's creative team.

The event was attended by Dr. Ulduz Qahramanova, acting associate professor from ASPU's "Literature" department, Aynur Badalova, lecturer from the "Azerbaijani Language and Its Teaching Technology" department, Dr. Sahila Ibrahimova, senior lecturer from the "Modern Azerbaijani Language" department, Dr. Gunel Hummatova, senior lecturer from the "Literature Teaching Technology" department, lecturers from Khazar University and World School, as well as graduate students, students, and young researchers.

# TARİX MÜƏLLİMLİYİ İXTİSASI TƏLƏBƏLƏRİNİN BEYNƏLXALQ MUZEYLƏR GÜNÜNDƏ BAKIƏTRAFI ABİDƏLƏRƏ SƏFƏRİ



# HISTORY TEACHING STUDENTS' VISIT TO MONUMENTS AROUND BAKU ON INTERNATIONAL MUSEUMS DAY

Mayın 18-də Xəzər universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix müəllimliyi ixtisasının dördüncü kurs tələbələri "Müharibələr tarixi" fənninə aid olan "Azərbaycanın müdafiə tikililəri" mövzusu ilə bağlı AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin toplusu şöbəsi" və Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə "Yanardağ", "Dördkünc Mərdəkan qalası" və "Ramana qalası" abidələrində tədris ekskursiyasında olublar.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əməkdaşları Dos. Mikayıl Mustafayev, Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov və tələbələrin təşəbbüsü ilə təşkil olunan xüsusi akademik ekskursiya Azərbaycanın müdafiə memarlığının vacib tərkib hissəsi olan Bakıətrafı qalaların xalqımızın hərb tarixindəki mühüm rolu-

On May 18, fourth-year students of the History Teaching specialization at Khazar University's School of Humanities, Education and Social Sciences participated in an educational excursion to the "Yanardag," "Fourth Mardakan Castle," and "Ramana Castle" monuments. The excursion was organized by the Archaeological Monuments Collection Department of the Institute of Archaeology and Anthropology of the Azerbaijan National Academy of Sciences (ANAS) and the History and Archaeology Department of Khazar University, focusing on the topic "Defense Structures of Azerbaijan" related to the "History of Wars" course. The special academic excursion, organized through the initiative of ANAS staff members Associate Professor Mikayil Mustafayev, History and Archaeology Department instructor Orkhan Zamanov, and the students, was significant in terms of providing a visual understanding of the important role of castles around Baku in our nation's military history, which

nun əyani qavranması baxımından əhəmiyyətli idi.

Səfərin öncədən təyin olunmuş proqramına əsasən ilk olaraq "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu ərazisinə səfər edildi. Burada ekskursiya zamanı bələdçi abidə ərazisindəki tarixi tikililəri və eksponatları əyani şəkildə göstərərək, tələbələri ətraflı məlumatlandırdı.

Sonra səfərin əsas hissəsi olan Mərdəkan və Ramana qalalarına maraqlı ekskursiya başlandı. Tələbələr qədim tarixə malik Ramana kəndinə səfər edərək, "Ramana qalası"nda oldular. Burada bələdçi tələbələrə ərazinin və qalanın tarixi haqqında geniş məlumat verdi və onları qalanın ətrafının və daxilinin vəziyyəti ilə tanış etdi. Dördkünc qalaya səfər zamanı Mərdəkanın ağsaqqallarından biri olan Vidadi Yaptımov tələbələrə Mərdəkan tarixi, burada olan tikililər, "Dördkünc Mərdəkan qalası" haqqında məlumat verdi. Sonra isə tələbələr qalaya qalxaraq, xatirə şəkilləri çəkdirdilər.

Tədris ekskursiyası zamanı fənn müəllimi O. Zamanov, və orta əsrlər mütəxəssisi M.Mustafayev tələbələrə sözügedən qalaların tədqiqi, nə məqsədlə istifadə olunması və onların ölkəmizin tarixində yeri haqqında ətraflı danışdı, səfərdə iştirak edən Xəzər Universitetinin müəllimi Dr. Rüxsarə Quliyeva və digər mütəxəssislərlə birgə Azərbaycan qalaları barədə geniş müzakirə apardı. Abidələrlə əyani tanışlıq tələbələr tərəfindən maraqla qarşılandı.

constitute a vital component of Azerbaijan's defense architecture.

According to the program of the visit, the first destination was the "Yanardag" State Historical-Cultural and Natural Reserve territory. During the excursion here, the guide provided detailed information to students by demonstrating the historical structures and exhibits in the area.

Subsequently, an interesting excursion began to Mardakan and Ramana castles, which constituted the main part of the visit. Students visited the ancient village of Ramana and toured "Ramana Castle." Here, the guide provided extensive information about the history of the area and the castle, familiarizing them with the condition of the castle's surroundings and interior. During the visit to the Fourth Castle, Vidadi Yaptumov, one of Mardakan's elders, informed students about Mardakan's history, the structures located there, and the "Fourth Mardakan Castle." Afterwards, students climbed the castle and took commemorative photographs. During the educational excursion, course instructor O. Zamanov and medieval specialist M. Mustafayev spoke in detail to students about the research of the mentioned castles, their purposes of use, and their place in our country's history. Together with Dr. Rukhsara Guliyeva, an instructor from Khazar University who participated in the visit, and other specialists, they conducted extensive discussions about Azerbaijan's castles. The direct acquaintance with the monuments was received with great interest by the students.



## FRANKOFONİYA GÜNLƏRİ ÇƏRÇİVƏSİNDƏ "QƏHRƏMANLAR GÖRÜŞƏNDƏ" ADLI FRANSIZ DİLİNDƏ AÇIQ DƏRS

Mayın 20-də Xəzər Universitetinin Nərimanov kampusunda Humanitar, təhsil və sosial elmlər fakültəsi və Təbiət elmləri və mühəndislik fakültəsinin II kurs tələbələrinin iştirakı ilə Frankofoniya Günləri çərçivəsində "Qəhrəmanlar görüşəndə" adlı açıq dərs keçirildi.

Fransız dili müəllimi Lətafət Quliyevanın rəhbərliyi ilə hazırlanan açıq dərsdə tələbələr bir il ərzində qazandıqları bilik və bacarıqları nümayiş etdirməklə yanaşı, fransız dilinə və mədəniyyətinə olan sevgilərini də ifadə etdilər.

Açıq dərs boyu tələbələr tərəfindən fransız ədəbiyyatından, kinosundan və musiqisindən seçilmiş nümunələr, fransız dilində mahnılar və ədəbi-bədii kompozisiyalar nümayiş olundu.

Açıq dərsdə Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, departamentin müəllimləri Dos. Zivər Hüseynli Baylan, Dr. Reyhan Mədətova və Sevinc Allahverdiyeva iştirak etdilər. Onlar tələbələrin çıxışlarını yüksək qiymətləndirərək, bu cür açıq dərslərin tələbələrin dil bacarıqlarının inkişafında və beynəlxalq mədəniyyətlərə inteqrasiyasında mühüm rol oynadığını vurğuladılar.

Frankofoniya Günləri çərçivəsində keçirilən bu açıq dərs tələbələrin yaradıcılığını və komanda işini önə çıxarmaqla yanaşı, universitetin multikultural mühitinə də öz töhfəsini verdi.

## OPEN LESSON IN FRENCH "WHEN HEROES MEET" WITHIN FRANCOPHONIE DAYS

On May 20, an open lesson titled "When Heroes Meet" was held within the framework of Francophonie Days at Khazar University's Narimanov campus with the participation of second-year students from the School of Humanities, Education and Social Sciences and the School of Science and Engineering.

In the open lesson prepared under the guidance of French language teacher Latafat Guliyeva, students not only demonstrated the knowledge and skills they acquired during the year, but also expressed their love for the French language and culture.

Throughout the open lesson, students presented selected samples from French literature, cinema and music, songs in French and literary-artistic compositions. The open lesson was attended by Head of the Department of Languages and Literature Assoc. Prof. Dilbar Zeynalova, department teachers Assoc. Prof. Ziver Huseynli Baylan, Dr. Reyhan Madatova and Sevinj Allahverdiyeva. They highly evaluated the students' performances and emphasized that such open lessons play an important role in developing students' language skills and integration into international cultures.

This open lesson held within the framework of Francophonie Days highlighted students' creativity and teamwork while also contributing to the university's multicultural environment.

## ÜZEYİR HACIBƏYLİNİN 140 İLLİYİNƏ HƏSR OLUNMUŞ SEMİNAR

Mayın 21-də Xəzər Universitetinin Nərimanov korpusunda Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar, dramaturq və ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunmuş "XX əsrin əvvəllərində Üzeyir Hacıbəylinin milli istiqlal mübarizəsi" (arxiv materialları əsasında) adlı seminar təşkil olunmuşdur.

Dillər və ədəbiyyatlar departamentinin müdiri, Dos. Dilbər Zeynalova Üzeyir Hacıbəylinin Azərbaycan müsiqi tarixinin ən böyük simalarından biri olduğunu, Azərbaycan xalq musiqisini notlara köçürərək, onun

## SEMINAR DEDICATED TO 140TH ANNIVERSARY OF UZEYIR HAJIBEYLI

On May 21, a seminar titled "Uzeyir Hajibeyli's National Independence Struggle in the Early 20th Century" (based on archival materials) was organized at Khazar University's Narimanov campus by the Department of Languages and Literature, dedicated to the 140th anniversary of the birth of Uzeyir Hajibeyli, the founder of Azerbaijani professional music, genius composer, playwright, and public figure.

The head of the Department of Languages and Literature, Associate Professor Dilbar Zeynalova emphasized that Uzeyir Hajibeyli was one of the greatest figures in Azerbaijani music history, who contributed

elmi əsaslarla öyrənilməsinə töhfə verdiyini, musiqili komediyaların, müxtəlif ləqəblərlə dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlərin müəllifi olduğunu vurğuladı.

AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsinin aparıcı elmi işçisi Aytən İmanova Üzeyir Hacıbəylinin həm də xalqının azadlığı, milli kimliyi və maariflənməsi uğrunda yorulmadan çalışan əsl ziyalı və vətənpərvər olduğunu qeyd etdi. Arxiv materialları əsasında apardığı araşdırmaların nəticəsini tədbir iştirakçıları ilə bölüşdü. Məruzədən sonra tələbələrin suallarını cavablandırdı.

Tədbirdə Dillər və ədəbiyyatlar departamentinin müəllimləri Dos. Xatirə Yusifova, Dos. Zivər Hüseynli Baylan, Dr. Almaz Bədəlova, Sevinc Allahverdiyeva da çıxış edərək, mövzu ətrafında mülahizələrini bildirdilər.



*Aytən İmanova*



to the scientific study of Azerbaijani folk music by transcribing it into musical notation, and was the author of musical comedies, numerous articles, feuilletons, and satirical miniatures addressing important socio-political and educational issues of the era under various pseudonyms.

Leading researcher of the Personal Archives Research Department at the Institute of Manuscripts named after M. Fuzuli of ANAS, Ayten Imanova noted that Uzeyir Hajibeyli was also a true intellectual and patriot who worked tirelessly for his people's freedom, national identity, and enlightenment. She shared the results of her research based on archival materials with the event participants. After the presentation, she answered students' questions.

At the event, faculty members of the Department of Languages and Literature - Associate Professor Khatira Yusifova, Associate Professor Ziver Huseynli Baylan, Dr. Almaz Badalova, and Sevinj Allahverdiyeva also spoke and shared their observations on the topic.

# "QANUN NƏŞRİYYATI"NDA FİLOLOJİ TƏCRÜBƏ BAŞA ÇATDI

Mayın 22-də Xəzər Universitetin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasının IV kurs tələbələrinin filoloji təcrübəni bitirməsi ilə bağlı iclas keçirilib. Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova filoloji təcrübə və "Qanun" nəşriyyatı ilə əməkdaşlığın əhəmiyyəti haqqında danışıb.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva tələbələrin filoloji (istehsalat) təcrübəsi haqqında fikirlərini bildirib və onlara uğurlar arzulayıb  Filoloji təcrübənin rəhbəri, Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy təcrübə prosesi haqqında məlumat verib. "Qanun" nəşriyyatının İnsan resursları üzrə mütəxəssisi Zərifə Məmmədova tələbələrin nəşriyyatda gördükləri işlərlə bağlı çıxış edib.

# PHILOLOGICAL INTERNSHIP AT "QANUN" PUBLISHING HOUSE COMPLETED



*Aygün Verdiyeva, Zərifə Məmmədova*

On May 22, a meeting was held regarding the completion of philological internship by fourth-year students of Khazar University's Philology (Azerbaijani Language and Literature) program. Associate Professor Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures, spoke about the importance of philological internship and cooperation with "Qanun" Publishing House.

Aygun Verdiyeva, Deputy Dean of the School of Humanities, Education and Social Sciences, expressed her thoughts on the students' philological (industrial) internship and wished them success. Ulvi Babasoy, supervisor of the philological internship and instructor at the Department of Languages and Literatures, provided information about the internship process. Zarifa Mammadova, Human Resources Specialist at "Qanun" Publishing House, delivered a presentation about the work performed by students at the publishing house.

TRT AVAZ

## DEPARTAMENT MÜDİRİ *TRT AVAZ* KANALINDA
## DEPARTMENT HEAD ON *TRT AVAZ* CHANNEL

Mayın 19-da Atatürkü Anma, Gənclik və İdman bayramı münasibətilə Bakı Türk Anadolu Liseyində Türkiyə səfiri və müxtəlif qurum təmsilçilərinin iştirakı ilə təntənəli tədbir təşkil olunub. Tədbirdə Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu da iştirak etmişdir.

Bayram tədbirlərindən sonra Dos. Telman Nüsrətoğlu *TRT Avaz* kanalının canlı yayımında qonaq olmuş və orada Fatih Avanos`un suallarını cavablandırmışdır. Canlı yayım zamanı Mustafa Kamal Paşanın rəhbərliyi ilə çətin şəraitdə həyata keçirilən milli mübarizə prosesi və Türkiyənin müstəqillik və azadlıq uğrunda apardığı mübarizə geniş şəkildə şərh edilmişdir. Verilişin linki:

On May 19, a ceremonial event was organized at Baku Turkish Anatolian High School on the occasion of Commemoration of Atatürk, Youth and Sports Day, with the participation of the Turkish Ambassador and representatives of various institutions. Associate Professor Telman Nusretoğlu, Director of the History and Archaeology Department, also participated in the event.

After the holiday events, Associate Professor Telman Nusretoğlu was a guest on *TRT Avaz* channel's live broadcast and answered questions from Fatih Avanos. During the live broadcast, the national struggle process carried out under difficult conditions under the leadership of Mustafa Kemal Pasha and Türkiye's struggle for independence and freedom were extensively explained. Link to the show:

***https://www.facebook.com/share/v/1ARNgGjLjW/?mibextid=wwXIfr***

## *İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ "COGENT ARTS & HUMANITIES" JURNALINDA*

## *ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT STAFF MEMBER ARTICLE PUBLISHED IN "COGENT ARTS & HUMANITIES" JOURNAL*

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Dr. Muhammad İmran`ın "Bridging cultures through explicitation: a corpus-based analysis of bilingual literary translations" ("Aydınlaşdırma vasitəsilə mədəniyyətlərin yaxınlaşdırılması: ikidilli bədii tərcümələrin korpus əsaslı təhlili") adlı məqaləsi 1.1 İmpakt Faktorlu Scopus Q2 və Web of Science Q2 jurnalı olan "*Cogent Arts & Humanities*" nəşrində dərc olunub (cild 12, sayı 1).

Dr. Muhammad Imran, staff member of Khazar University's English Language and Literature Department has published an article titled "Bridging cultures through explicitation: a corpus-based analysis of bilingual literary translations" in *Cogent Arts & Humanities*, Vol. 12(1), a Scopus Q2 and Web of Science- Q2 with 1.1 Impact Factor journal.

***https://www.tandfonline.com/doi/full/10.1080/23311983.2025.2508210#abstract***

# *"UNİDESTİN" TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI*

# *OPENING OF UNIDESTIN" TRAINING CENTER*




Mayın 22-də "UniDestin" Tədris Mərkəzinin rəsmi açılış mərasimi baş tutdu. Tədbirdə Xəzər Universitetinin əməkdaşları və tələbələri, müxtəlif ali təhsil müəssisələrinin nümayəndələri, media təmsilçiləri və təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər iştirak ediblər.

Tədris Mərkəzinin meneceri, Xəzər Universitetinin "Beynəlxalq münasibətlər" ixtisası üzrə 2008-ci il bakalavr məzunu Ülviyyə Hüseynova çıxışında mərkəzin fəaliyyət istiqamətləri, qısa müddət ərzində əldə olunan nailiyyətlər və gələcək hədəflər haqqında məlumat verib. Onun sözlərinə görə, "UniDestin" özündə xaricdə təhsil, karyera inkişafı və şəxsi potensialın gücləndirilməsi sahələrində innovativ yanaşmaları birləşdirir.

Mərkəz Azərbaycanda bütün karyera mərhələlərini əhatə edən tam xidmət modeli təqdim edən ilk tədris platformalarından biri olaraq, təhsil alanlara və gənc mütəxəssislərə sistemli və davamlı dəstək göstərməyi qarşıya məqsəd qoyur. Burada təqdim olunan proqramlar müasir əmək bazarının tələblərinə uyğun şəkildə hazırlanıb və real nəticəyə yönəlib.

Tədbirə dəvət olunan Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva çıxışında bildirdi ki, bu cür platformalar gənclərə yalnız bilik deyil, həm də motivasiya, təcrübə və real iş dünyası ilə əlaqə imkanları təklif edir. O, tələbələri təqdim olunan imkanlardan maksimum dərəcədə faydalanmağa, şəbəkələşmə və özünüinkişaf proseslərinə aktiv qoşulmağa çağırdı.

Açılış mərasimi çərçivəsində interaktiv təqdimatlar, təcrübə mübadiləsi və şəbəkələşmə imkanları təşkil olunub. Tədbir iştirakçıları "UniDestin"in gənclərin peşəkar inkişafına töhfə verəcəyini və bu istiqamətdə yeni imkanlar yaradacağını qeyd ediblər.

The official opening ceremony of "UniDestin" Training Center was held on May 22. The event was attended by staff and students of Khazar University, representatives of various higher education institutions, media representatives, and specialists working in the field of education.




*Ülviyyə Hüseynova*

In her speech, the Training Center manager, Ulviyya Huseynova, a 2008 bachelor's graduate of Khazar University's "International Relations" program, provided information about the center's areas of activity, achievements made in a short period, and future goals. According to her, "UniDestin" combines innovative approaches in the areas of education abroad, career development, and personal potential enhancement.

As one of the first training platforms in Azerbaijan to offer a full-service model covering all career stages, the center aims to provide systematic and continuous support to students and young professionals. The programs offered here are prepared in accordance with the requirements of the modern labor market and are result-oriented.

Zarifa Aliyeva, Director of Khazar University's Career and Alumni Center, who was invited to the event,




stated in her speech that such platforms offer young people not only knowledge but also motivation, experience, and opportunities to connect with the real business world. She called on students to make maximum use of the opportunities provided and to actively participate in networking and self-development processes. Interactive presentations, experience exchange, and networking opportunities were organized within the framework of the opening ceremony. Event participants noted that "UniDestin" will contribute to the professional development of young people and create new opportunities in this direction.

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU BEYNƏLXALQ ELMİ KONFRANSINDA

Mayın 23-də Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Gəncə Dövlət Universitetinin birgə keçirdikləri "Təbiət və sosial elmlər sahəsində qlobal çağırışlar" beynəlxalq elmi konfransında onlayn olaraq iştirak etmişdir. Dr. Sevinc Qəmbərova konfransın "Təhsil" bölməsində "Müasir müəllim modeli" mövzusunda məruzə etmiş, ona ünvanlanan sualları cavablandırmışdır.

## LANGUAGES DIVISION COORDINATOR AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

On May 23, Dr. Sevinj Gambarova, coordinator of the Languages Division of the Department of Languages and Literature at Khazar University, participated online in the international scientific conference "Global Challenges in Natural and Social Sciences" jointly organized by the Ministry of Science and Education of the Republic of Azerbaijan and Ganja State University. Dr. Sevinj Gambarova delivered a presentation on "Modern Teacher Model" in the "Education" section of the conference and answered questions addressed to her.

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ GƏNC TƏDQİQATÇILARIN IX BEYNƏLXALQ ELMİ KONFRANSINDA

# KHAZAR UNIVERSITY STUDENTS PARTICIPATE IN IX INTERNATIONAL SCIENTIFIC CONFERENCE OF YOUNG RESEARCHERS



*Şənay Mirzə, Adilə Cəbrayılova, Sərfinaz Nağıyeva, Zabitə Teymurlu (dos.müəllim), Zabilə Həsənova, Həbibə Mirzəyeva, Günel Abuşova, Aysu Qənbərova*

23 may tarixində Xəzər Universitetinin Filologiya və İbtidai sinif müəllimliyi ixtisaslarında təhsil alan tələbələr Bakı Mühəndislik Universitetində keçirilən "Gənc Tədqiqatçıların IX Beynəlxalq Elmi Konfransı"nda iştirak ediblər. Konfrans Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunub.

Tələbələr əvvəlcə açılış-plenar iclasda iştirak ediblər. Ardınca bölmə iclaslarında elmi məruzələrlə çıxış edərək uğurlu təqdimatlar nümayiş etdiriblər. Elmi yanaşmaları və çıxış bacarıqları ilə fərqlənən tələbələrdən Adilə Cəbrayılova ("Özbək dilinin səciyyəvi xüsusiyyətləri"), Şənay Mirzə ("Azərbaycan dilinin Kəlbəcər şivəsi"), Aysu Qənbərova ("Nitqin təmizliyini pozan amillər"), Günel Abuşova ("Azərbaycan dilinin Kürdəmir şivəsi"), Aysun Məmmədxanova ("İmla yazılarının növləri və əhəmiyyəti"), Həbibə Mirzəyeva ("Azərbaycan dilinin Qarabağ şivə qrupunun leksikası"), Zabilə Həsənova ("Qazax dilinin səciyyəvi xüsusiyyətləri"), Sərfinaz Nağıyeva ("Azərbaycan dilinin Bakı şivəsi"), Xədicə Məmmədova ("Çexovun "Palatada" hekayəsində İvan Dmitriçin ruhsal tələsi və Andrey Yefimiçin obrazı") konfrans sonunda sertifikatlarla təltif olunublar.

On May 23, students studying in Philology and Primary School Teaching specializations at Khazar University participated in the "IX International Scientific Conference of Young Researchers" held at Baku Engineering University. The conference was dedicated to the 102nd anniversary of the birth of National Leader Heydar Aliyev.

The students first participated in the opening plenary session. Subsequently, they delivered scientific presentations at section meetings, demonstrating successful presentations. Students who distinguished themselves with their scientific approaches and presentation skills - Adila Jabrayilova ("Characteristic Features of the Uzbek Language"), Shanay Mirza ("Kalbajar Dialect of the Azerbaijani Language"), Aysu Ganbarova ("Factors Violating Speech Purity"), Gunel Abushova ("Kurdamir Dialect of the Azerbaijani Language"), Aysun Mammadkhanova ("Types and Importance of Spelling Exercises"), Habiba Mirzayeva ("Lexicon of the Karabagh Dialect Group of the Azerbaijani Language"), Zabila Hasanova ("Characteristic Features of the Kazakh Language"), Sarfinaz Naghiyeva ("Baku Dialect of the Azerbaijani Language"), Khadija Mammadova ("Ivan Dmitrich's Spiritual Quest and the Image of Andrey Yefimich in Chekhov's Story 'In the Ward'") - were awarded certificates at the end of the conference.

# XƏZƏR UNİVERSİTETİ İLƏ RESPUBLİKA SÜNİ MAYALANMA MƏRKƏZİ ARASINDA ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALANMIŞDIR




*Respublika Süni Mayalanma Mərkəzinin direktoru Elton Əbdurəhmanov, Çiçək Əliyeva*

# KHAZAR UNIVERSITY SIGNS COOPERATION AGREEMENT WITH REPUBLICAN ARTIFICIAL INSEMINATION CENTER

Mayın 23-də Xəzər Universiteti ilə Respublika Süni Mayalanma Mərkəzi (Göygöl rayonu) arasında əməkdaşlıq memorandumu imzalanmışdır. Bu anlaşmanın əsas məqsədi Baytarlıq təbabəti ixtisası üzrə tələbə hazırlıq səviyyəsinin yüksəldilməsi, birgə elmi-tədqiqat işlərinin aparılması və kadr mübadiləsinin həyata keçirilməsidir.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində ölkədə heyvan mənşəli məhsulların istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalanma tədbirlərinin həyata keçirilməsini sürətləndirmək baxımından bu mərkəzin müstəsna rolu vardır.

Memorandum imzalanması çərçivəsində departament koordinatoru Çiçək Əliyeva, Təbiət elmləri və mühəndislik fakültəsinin əməkdaşı İdrak Əliyev və fənn müəllimi Ramin Abbasovun rəhbərliyi ilə Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələr üçün Mərkəzin iş fəaliyyəti ilə bağlı info-tur təşkil edilmişdir.

On May 23, a cooperation memorandum was signed between Khazar University and the Republican Artificial Insemination Center (Goygol district). The main objective of this agreement is to enhance the level of student preparation in the field of Veterinary Medicine, conduct joint scientific research work, and implement personnel exchange.

Within the framework of measures taken to ensure food security in Azerbaijan, this center plays an exceptional role in increasing the production of livestock products in the country, improving the breed composition of cattle, and accelerating the implementation of artificial insemination measures.

Within the framework of the memorandum signing, an info-tour regarding the Center's operations was organized for students studying Veterinary Medicine under the leadership of department coordinator Chichek Aliyeva, School of Science and Engineering staff member Idrak Aliyev, and subject instructor Ramin Abbasov.

# XƏZƏR UNİVERSİTETİNİN BAYTARLIQ TƏBABƏTİ İXTİSASI TƏLƏBƏLƏRİ AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİNİN BAYTARLIQ TƏBABƏTİ FAKÜLTƏSİNDƏ



*İdrak Əliyev, Şəlalə Zeynalova, Telman İsgəndərov, Çiçək Əliyeva*

# KHAZAR UNIVERSITY VETERINARY MEDICINE STUDENTS VISIT AZERBAIJAN STATE AGRARIAN UNIVERSITY'S FACULTY OF VETERINARY MEDICINE

Mayın 23-də Xəzər Universitetinin Baytarlıq departamentinin koordinatoru Çiçək Əliyeva və Təbiət elmləri və mühəndislik fakültəsinin əməkdaşı İdrak Əliyevin rəhbərliyi ilə fakültənin Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələri üçün Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Baytarlıq təbabəti fakültəsinin maddi-texniki bazası ilə tanışlıq məqsədilə ekskursiya təşkil edilmişdir.

ADAU Baytarlıq təbabəti fakültəsinin dekanı Şələlə Zeynalova və fakültə müəllimi Telman İsgəndərov tərəfindən tələbələrə fakültənin inkişaf tarixi, mad-

On May 23, an excursion was organized for students majoring in Veterinary Medicine at the School of Science and Engineering, led by Chichek Aliyeva, coordinator of Khazar University's Veterinary Department, and Idrak Aliyev, staff member of the School of Science and Engineering. The purpose was to familiarize students with the material and technical facilities of the Faculty of Veterinary Medicine at Azerbaijan State Agrarian University (ASAU).

Dean of ASAU's Faculty of Veterinary Medicine Shelale Zeynalova and faculty instructor Telman Iskandarov provided students with comprehensive in-





di-texniki bazası və tədrisinə dair geniş məlumat verilmişdir.

Qeyd edilmişdir ki, Baytarlıq təbabəti fakültəsi ölkədə ilk ali təhsilli baytar həkimləri hazırlayan baza olmaqla yanaşı, həm də baytarlıq elmi-tədqiqat işləri ilə məşğul olan əsas mərkəzdir. Fəaliyyəti dövründə fakültə ölkənin aqrar sahəsi üçün minlərlə yüksək ixtisaslı baytar mütəxəssisləri hazırlamışdır ki, onlar arasında tanınmış elm xadimləri, əmək qəhrəmanları, ictimai xadimlər, Dövlət mükafatı laureatları, dövlət strukturlarında yüksək rəhbər vəzifələrdə çalışmış şəxslər olmuşdur.

Ekskursiya zamanı tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

formation about the faculty's development history, material and technical facilities, and educational programs. It was noted that the Faculty of Veterinary Medicine serves as the primary institution for training the country's first higher-educated veterinarians, as well as the main center engaged in veterinary scientific research activities. Throughout its operational period, the faculty has prepared thousands of highly qualified veterinary specialists for the country's agricultural sector, including distinguished scientists, labor heroes, public figures, state award laureates, and individuals who have served in senior leadership positions within government structures. During the excursion, questions of interest to the students were answered.





# BAYTARLIQ TƏBABƏTİ İXTİSASI TƏLƏBƏLƏRİ GƏNCƏ "DÜNYA" MƏKTƏBİNDƏ

# VETERINARY MEDICINE STUDENTS VISIT GANJA "DUNYA" SCHOOL

Mayın 23-də Təbiət elmləri və mühəndislik fakültəsinin Baytarlıq təbabəti ixtisasI üzrə təhsil alan tələbələrinə Gəncə şəhərində fəaliyyət göstərən "Dünya" məktəbində infotur təşkil edilmişdir. İnfotur Gəncə "Dünya" məktəbinin direktoru Vahid Həsənovun başçılığı ilə keçirilmişdir. Tələbələrə məktəbin infrastrukturu və fəaliyyəti ilə bağlı geniş məlumat verilmişdir.

Məlumat üçün bildirək ki, "Dünya" məktəbləri şəbəkəsinin bir qolu olan Gəncə "Dünya" məktəbi Azərbaycanın qədim və gözəl guşələrindən biri olan Gəncənin ilk özəl məktəb kompleksidir.

On May 23, an information tour was organized for students studying Veterinary Medicine at the School of Science and Engineering at the "Dunya" school operating in Ganja city. The information tour was conducted under the leadership of Vahid Hasanov, director of Ganja "Dunya" school. Students were provided with comprehensive information about the school's infrastructure and activities.

For information, it should be noted that Ganja "Dunya" school, which is a branch of the "Dunya" schools network, is the first private school complex in Ganja, one of Azerbaijan's ancient and beautiful regions.





## 317 NÖMRƏLİ TAM ORTA MƏKTƏBİN ABİTURİYENTLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ İLƏ GÖRÜŞ

Mayın 26-da Xəzər Universitetində Bakının Suraxanı rayonundakı 317 nömrəli tam orta məktəbin abituriyentləri və müəllim kollektivi ilə görüş keçirilmişdir. Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy abituriyentlərə universitetin tədris prosesi və təhsil imkanları barədə ətraflı məlumat vermiş və abituriyentlərin suallarını cavablamışdır.

Xəzər Universitetinin 2011-ci il məzunu, EFE kursları şəbəkəsinin təsisçi direktoru, "Stop dreaming start speaking english" kitabının müəllifi, Elbonito şirkətinin sahibi Elnarə Bəybalayeva abituriyentlərə Xəzər Universitetində oxuduğu illər haqqında təəssüratlarını danışmış və uğur yolu ilə bağlı məlumat vermişdir.

Məktəbin ingilis dili müəllimi Aynurə Hacıyeva və Azərbaycan dili və ədəbiyyatı müəllimi Kəmalə Abdullayeva Xəzər Universiteti haqqında öz təəssüratlarını paylaşıblar.

Sonda abituriyentlər universitetin kitabxana və laboratoriyaları ilə tanış olublar.

## MEETING WITH GRADUATES AND TEACHING STAFF OF SECONDARY SCHOOL NO. 317

On May 26, a meeting was held at Khazar University with graduates and teaching staff of Secondary School No. 317 located in Baku's Surakhani district. Ulvi Babasoy, lecturer at Khazar University's Department of Languages and Literature, provided detailed information to the graduates about the university's educational process and academic opportunities, and answered the graduates' questions.

Elnara Beybalayeva, a 2011 graduate of Khazar University, founding director of the EFE courses network, author of the book "Stop dreaming start speaking English," and owner of Elbonito company, shared her impressions about her years of study at Khazar University with the graduates and provided information about her path to success.

The school's English language teacher Aynura Hajiyeva and Azerbaijani language and literature teacher Kamala Abdullayeva shared their impressions about Khazar University.

At the end, the graduates became acquainted with the university's library and laboratories.



## "XƏZƏR"DƏ ÜMUMDÜNYA MƏDƏNİ MÜXTƏLİFLİK GÜNÜ QEYD OLUNUB

Mayın 26-da Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı və əcnəbi tələbələrin iştirakı ilə Ümumdünya mədəni müxtəliflik günü qeyd olunub. Tədbirdə müxtəlif ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr də iştirak edib.

Xatırladaq ki, Dialoq və inkişaf naminə Ümumdünya mədəni müxtəliflik günü UNESKO-nun 2001-ci ildə qəbul etdiyi Mədəni müxtəlifliyə dair bəyannaməsinə əsasən 2003-cü ildən başlayaraq, hər il mayın 21-də qeyd olunur.

Məlumat üçün bildirək ki, Xəzər Universiteti bu günədək dünyanın 60-dan çox ölkəsindən olan əcnəbi tələbələrinə ev sahibliyi edir.

## WORLD DAY FOR CULTURAL DIVERSITY CELEBRATED AT KHAZAR UNIVERSITY

On May 26, the World Day for Cultural Diversity was celebrated at Khazar University with the organization of the International Relations Department and participation of international students. Representatives from embassies of various countries in Azerbaijan also participated in the event.

It should be noted that the World Day for Cultural Diversity for Dialogue and Development has been observed annually on May 21 since 2003, based on UNESCO's Declaration on Cultural Diversity adopted in 2001.

For information, Khazar University currently hosts international students from over 60 countries worldwide.




Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva tədbiri açaraq, iştirakçılara uğurlar arzulayıb.

Müxtəlif ölkələrdən olan tələbələr öz musiqi, rəqs, sərgi və mətbəxləri vasitəsilə ölkələrinin mədəniyyətini təqdim ediblər.

Tədbirin əsas hissələrindən biri milli geyim təqdimatı olub. Azərbaycan, Əfqanıstan, Çin, Efiopiya, İran, İordaniya, Qazaxıstan, Fələstin, Pakistan, Sudan, Şri Lanka və Türkiyədən olan tələbələr öz ölkələrinin

Fatima Valiyeva, Director of Khazar University's International Relations Department, opened the event and wished success to the participants.

Students from various countries presented their countries' cultures through music, dance, exhibitions, and cuisine.

One of the main highlights of the event was the national costume presentation. Students from Azerbaijan, Afghanistan, China, Ethiopia, Iran, Jordan, Kazakhstan, Palestine, Pakistan, Sudan, Sri Lanka,




bayraqları ilə səhnəyə çıxaraq, milli geyimlərini nümayiş etdiriblər. Sonra Azərbaycanın "Xarıbülbül", Pakistanın "Zindabad" və "Dil Dil Pakistan" adlı musiqiləri rəqs müşayiəti ilə ifa olunub. Hər bir ölkə öz mədəniyyətini stendlər vasitəsilə əks etdirib.

Xına və üz boyama kimi fəaliyyətlər iştirakçıların marağına səbəb olub. Tələbələrin iştirak etdiyi yallı fləşmobu, ESN (Erasmus Tələbələr Şəbəkəsi) təqdimatı və qısa müsabiqə təşkil edilib. Qaliblərə hədiyyələr verilib.

and Turkey took the stage with their countries' flags and displayed their national costumes. Subsequently, Azerbaijan's "Kharibulbul," Pakistan's "Zindabad" and "Dil Dil Pakistan" were performed with musical dance accompaniment. Each country reflected its culture through stands.

Activities such as henna and face painting attracted participants' interest. A colorful flash mob with student participation, ESN (Erasmus Student Network) presentation, and a brief competition were organized. Winners were presented with gifts.






# DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU "AZƏRBAYCAN DİLÇİLİYİ XXI YÜZİLLİKDƏ: REALLIQLAR, PERSPEKTİVLƏR" ADLI RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSINDA

# LANGUAGES DIVISION COORDINATOR AT REPUBLIC SCIENTIFIC-PRACTICAL CONFERENCE "AZERBAIJANI LINGUISTICS IN THE 21ST CENTURY: REALITIES, PERSPECTIVES"

Mayın 26-da Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan dilçiliyi XXI yüzillikdə: reallıqlar, perspektivlər" adlı respublika elmi-praktik konfransında iştirak etmişdir. Dr. Sevinc Qəmbərova konfransın "Tarixi-müqayisəli dilçilikdə müasir yanaşmalar" bölməsində "Azərbaycan dili şivələrinin müqayisəli tədqiqi" mövzusunda məruzə etmiş, ona ünvanlanan sualları cavablandırmışdır.

Məruzəçi qeyd etmişdir ki, Azərbaycan dili şivələri XX əsrin əvvəllərindən başlayaraq monoqrafik yol ilə kifayət qədər araşdırılmışdır. Türklər üçün ortaq ünsiyyət dilinin, terminologiyanın formalaşması prosesində bu kimi araşdırmaların aparılması aktuallıq kəsb etməkdədir.

Çıxışda Azərbaycan dili şivələrinin digər türk dilləri və onların dialektləri ilə müqayisəsinə həsr edilmiş tədqiqat işləri barədə məlumat verilərək, onların əhəmiyyətindən bəhs olunmuşdur.

On May 26, Dr. Sevinj Gambarova, coordinator of the Languages Division of the Department of Languages and Literature, participated in the republic scientific-practical conference titled "Azerbaijani Linguistics in the 21st Century: Realities, Perspectives" at Azerbaijan State Pedagogical University. Dr. Sevinj Gambarova delivered a presentation on "Comparative Study of Azerbaijani Language Dialects" in the conference section "Modern Approaches in Historical-Comparative Linguistics" and answered questions addressed to her.

The presenter noted that Azerbaijani language dialects have been sufficiently researched through monographic methods since the early 20th century. Conducting such research becomes relevant in the process of forming a common communication language and terminology for Turks. The presentation provided information about research works dedicated to comparing Azerbaijani language dialects with other Turkic languages and their dialects, discussing their significance.

# KİTABXANA İNFORMASİYA MƏRKƏZİNDƏ "28 MAY-MÜSTƏQİLLİK GÜNÜ" ADLI KİTAB SƏRGİSİ




# BOOK EXHIBITION "MAY 28 - INDEPENDENCE DAY" AT LIBRARY INFORMATION CENTER

Mayın 27-də Kitabxana İnformasiya Mərkəzində (KİM) "28 May-Müstəqillik Günü" adlı kitab sərgisi təşkil olundu.

KİM-in direktor müavini Aytac Misgərli 28 May - Müstəqillik günü haqqında tələbələrə və işçilərə məlumat verdi. Sonra sərgidə olan kitablara baxış keçirildi.

Nəşrlər sırasında: "Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu", "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası", "Azərbaycan milliyətçiliyi", "Cümhuriyyətin "Azərbaycan"adlandırılması və onun tarixi əhəmiyyəti", "Yüz tələbə, yüz tale", "Cümhuriyyət qurucuları - 100 il", "Azərbaycan milli azadlıq hərəkatı ensiklopediyası və s. kitablar sərgiləndi.



On May 27, a book exhibition titled "May 28 - Independence Day" was organized at the Library Information Center (LIC).

LIC Deputy Director Aytac Misgarli provided information about May 28 Independence Day to students and staff. Subsequently, a review of the books displayed at the exhibition was conducted.

Among the publications exhibited were: "Azerbaijan People's Republic and Caucasian Islamic Army," "Azerbaijan People's Republic Encyclopedia," "Azerbaijani Nationalism," "The Naming of the Republic as 'Azerbaijan' and Its Historical Significance," "One Hundred Students, One Hundred Destinies," "Republic Founders - 100 Years," "Azerbaijan National Liberation Movement Encyclopedia," and other books.



## *SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİ AA XƏBƏR AGENTLİYİNDƏ*

Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Gloria Shkurti mayın 27-də *AA xəbər* agentliyinin müxbirinə SETA-nın "2025 Techpulse Türkiye" hesabatını şərh edib. Türkiyənin texnologiya sistemində ümumi bir optimizm olduğunu qeyd edən Dr. Gloria bu optimizmin xüsusilə müdafiə sənayesində özünü büruzə verdiyini bildirib. O, hesabatda 2024-cü ilin nailiyyətlərini təhlil etdiklərini və ilk türk astronavtının kosmosa səfərinin böyük bir inkişaf olduğunu vurğulayıb.

*https://www.aa.com.tr/tr/savunma-sanayisi/turk-halki-savunma-sanayisindeki-teknolojileri-daha-cok-benimsedi/3580492*

## *LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY AT AA NEWS AGENCY*

On May 27, the lecturer of the Department of Political Science and Philosophy, Dr. Gloria Shkurti, commented on SETA's "2025 Techpulse Türkiye" report to an *AA news* agency correspondent. Noting that there is a general optimism in Türkiye's technology system, Dr. Gloria said that this is especially evident in the defense industry. She emphasized that they analyzed the achievements of 2024 in the report and the first Turkish astronaut going to space is a major development.

*https://www.aa.com.tr/tr/savunma-sanayisi/turk-halki-savunma-sanayisindeki-teknolojileri-daha-cok-benimsedi/3580492*

## 28 MAY - MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ SEMİNAR

## SEMINAR HELD ON OCCASION OF MAY 28 - INDEPENDENCE DAY

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə mayın 27-də 28 may - Müstəqillik Günü münasibətilə seminar keçirilib. Seminarda departamentini müəllimi Dr. Nurlan Nəsirov çıxış edərək, Azərbaycanın müstəqillik tarixi, 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və 28 Mayın tarixi əhəmiyyəti barədə geniş məlumat verib. Azərbaycan tarixində dövlətçilik ənənələrinin, milli istiqlal mübarizəsinin mühüm rolunu vurğulayıb və iştirakçıların suallarını cavablandırıb.

Seminar interaktiv şəraitdə keçib, tələbələr 28 Mayla bağlı aktual məsələlərə dair fikir mübadiləsi aparıblar.

A seminar was held on May 27, on the occasion of May 28 - Independence Day, organized by the Department of History and Archaeology of Khazar University. During the seminar, department lecturer Dr. Nurlan Nasirov delivered a presentation, providing comprehensive information about Azerbaijan's independence history, the establishment of the Azerbaijan People's Republic in 1918, and the historical significance of May 28. He emphasized the important role of statehood traditions and the national independence struggle in Azerbaijan's history and answered participants' questions.

The seminar was conducted in an interactive format, with students engaging in discussions on current issues related to May 28.

## *SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "DAİLY SABAH" QƏZETİNDƏ*

Xəzər Universitetinin Siyasi elmlər və Fəlsəfə departamentinin müəllimi Dr. Gloria Shkurti Özdemirin "Trump's tariffs and the prospects of a new 'AI winter" ("Trampın tarifləri və yeni "Süni intellekt qışı" perspektivləri") mövzusunda məqaləsi "*Daily Sabah*" qəzetinin 27 may 2025-ci il tarixli sayında dərc edilmişdir.

Qeyd edək ki, "*Daily Sabah*" Türkiyədə nəşr olunan gündəlik qəzetdir. İngilis dilində nəşr olunan və Turkuvaz Media Qrupuna məxsus olan qəzetin ilk nömrəsi 24 fevral 2014-cü ildə nəşr olunub.

*https://www.dailysabah.com/opinion/op-ed/trumps-tariffs-and-the-prospects-of-a-new-ai-winter*

DAILY SABAH

## *ARTICLE BY LECTURER OF DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY IN "DAILY SABAH" NEWSPAPER*

On May 27, an article by Dr. Gloria Shkurti Özdemir, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Trump's tariffs and the prospects of a new 'AI winter" has been published in "*Daily Sabah*".

It is important to note that The "Daily Sabah" is a Turkish pro-government daily newspaper published in Türkiye. Available in English and owned by Turkuvaz Media Group, "*Daily Sabah*" published its first issue on 24 February 2014.

## *"XƏZƏR"İN MÜƏLLİMİNİN HEKAYƏSİ "ХӘЗЕРГЕ ЗАМАН АЗӘРБАЙЖАН ХИКӘЯСЕ" TOPLUSUNDA*

Mayın 31-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Azərbaycandakı daimi nümayəndəliyində Kazandakı "Yazıçı" nəşriyyatında nəfis şəkildə işıq üzü görmüş "*Хәзерге заман Азәрбайжан хикәясе*" ("*Çağdaş Azərbaycan hekayəsi*") antologiyasının təqdimatı keçirilib.

Antologiyadakı mətnlər arasında Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Yeqzar Cəfərlinin "Cənab K" adlı hekayəsi də yer alıb.

Təqdimat zamanı kitabda hekayələri yayımlanmış müəlliflər, o cümlədən Yeqzar Cəfərli Tatarıstan Respublikasının Azərbaycandakı daimi nümayəndəliyinin diplomu ilə təltif olunub.




## *STORY BY LECTURER OF KHAZAR IN "ХӘЗЕРГЕ ЗАМАН АЗӘРБАЙЖАН ХИКӘЯСЕ" ANTHOLOGY*

On May 31, the presentation of the anthology "*Хәзерге заман Азәрбайжан хикаясе*" ("*Contemporary Azerbaijani Short Story*"), beautifully published by "Yazıçı" publishing house in Kazan, was held at the Permanent Representative Office of the Republic of Tatarstan of the Russian Federation in Azerbaijan.

Among the texts in the anthology is the short story "Mr. K" by Dr. Yeqzar Cəfərli, a teacher from the Languages and Literature Department of Khazar University.

During the presentation, the authors whose stories were published in the book, including Yegzar Jafarli, were honored with diplomas from the Permanent Representative Office of the Republic of Tatarstan in Azerbaijan.




## DEPARTAMENT MÜDİRİ MÜSTƏQİLLİK GÜNÜ İLƏ BAĞLI XÜSUSİ BURAXILIŞDA

## DEPARTMENT HEAD IN A SPECIAL ISSUE ON INDEPENDENCE DAY

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev mayın 27-də *“Beynəlxalq Radio”*-da *“Azərbaycanın Səsi”*-nin Müstəqillik gününə həsr edilmiş proqramında qonaq olmuşdur. Dos. Orxan Vəliyev aparıcı Elnurə Rzanın mövzu ətrafında suallarına cavab vermişdir.

Head of the Department of Political Science and Philosophy, Assoc. Prof. Orkhan Valiyev was a guest on the "*Voice of Azerbaijan*" program dedicated to Independence Day on "*International Radio*" on May 27. Assoc. Prof. Orkhan Valiyev answered questions from presenter Elnura Rza on the topic.

***https://www.youtube.com/live/F2-1LTKet4Y?si=kLJdT5axfWKQxOvj***

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORUNUN MƏQALƏSİ "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ" JURNALINDA

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərovanın "İnşa yazılarının təşkili və xüsusiyyətləri" adlı məqaləsi də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Azərbaycan dili və ədəbiyyat tədrisi" elmi-metodik jurnalında dərc edilmişdir (2025, cild 71, say 2), Jurnal AAK-ın tövsiyə etdiyi elmi nəşrlər sırasına daxildir. Həmçinin ERIH PLUS, İndex Copernicus, MIAR, ROAD və s. (20-dən çox) beynəlxalq elmi bazada indekslənir.

Məqalədə göstərilmişdir ki, ibtidai siniflərdən başlayaraq müxtəlif yazı növlərindən - inşa yazılarından istifadə şagirdlərin tənqidi və yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynayır. İnşa yazılarının müxtəlif növləri üçün mövzuların seçilməsi, planın tərtib edilməsi və bütün bunlara hazırlıq prosesinin düzgün şəkildə təşkil edilməsi çox önəmlidir. İnşa yazılarına ənənəvi təlimdə müraciət olunurdu. Fəal təlimdə isə inşa yazıları ilə yanaşı, esse yazı növlərinə də müraciət edilir. Müəllif hesab edir ki, bu yazı növlərinin hər ikisi eyni mahiyyətə malikdir. Bu səbəbdən tədrisdə birinin saxlanılması daha məqsədəuyğun olardı.

***https://tall.edu.az/az/articles/206/insa-yazilarinin-teskili-ve-x-uuml-susiyyetleri.html***

## ARTICLE BY LANGUAGES DIVISION COORDINATOR PUBLISHED IN "AZERBAIJANI LANGUAGE AND LITERATURE TEACHING" JOURNAL

An article titled "Organization and Characteristics of Essay Writing" by Dr. Sevinj Qambarova, Coordinator of the Languages Division at Khazar University's Department of Languages and Literature, has been published in the scientific-methodological journal "Azerbaijani Language and Literature Teaching" of the Ministry of Science and Education of the Republic of Azerbaijan (2025, volume 71, issue 2). The journal is included in the list of scientific publications recommended by the Higher Attestation Commission. It is also indexed in more than 20 international scientific databases including ERIH PLUS, Index Copernicus, MIAR, ROAD, and others.

The article demonstrates that the use of various types of writing, particularly essay writing, starting from elementary grades plays an important role in developing students' critical and creative thinking. The selection of topics for different types of essay writing, preparation of plans, and proper organization of the entire preparation process are of great importance. Essay writing was addressed in traditional education. In active education, however, along with essay writing, essay types are also utilized. The author believes that both of these writing types have the same essence. For this reason, maintaining one of them in teaching would be more appropriate.

# İNŞAAT MÜHƏNDİSLİYİ DEPARTAMENTİ FHN AKADEMİYASINDA KEÇİRİLƏN ELMİ-TEXNİKİ KONFRANSLARDA

# CIVIL ENGINEERING DEPARTMENT AT MINISTRY OF EMERGENCY SITUATIONS ACADEMY SCIENTIFIC-TECHNICAL CONFERENCES

May ayı ərzində Xəzər Universitetinin İnşaat mühəndisliyi departamentinin tələbələri və tədqiqatçıları Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasında keçirilən iki elmi-texniki konfransda iştirak edərək, universitetin elmi-akademik fəaliyyətini layiqincə təmsil ediblər. Departamentin tələbələrinin elmi tədqiqatlara cəlb olunması, beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və fövqəladə hallarla bağlı mühüm mövzuların araşdırılması bu tədbirlərdə əsas diqqət mərkəzində olmuşdur.

Mayın 7-də FHN Akademiyasında keçirilən "İqlim dəyişikliyi ilə mübarizə və "Yaşıl dünya": Araşdırma və tətbiqlər" adlı elmi konfransda İnşaat mühəndisliyi departamentinin tələbəsi Səriyyə Abışova "İnşaatda fövqəladə hallarla mübarizənin aktual problemləri" adlı məqaləsini təqdim etmişdir.

Mayın 27-də təşkil edilən X Elmi-Texniki Konfransda isə Səriyyə Abışova elmi araşdırmalarını davam etdirərək ikinci məqalə təqdim etmiş, Jalə Əsgərova "Tikinti sahələrində yanğın təhlükəsizliyi" adlı məqaləsi ilə çıxış edərək, risk azaldılması yollarına dair tövsiyələr vermişdir. İbrahim Aslan Erasmus+ proqramı ilə Xəzər Universitetində tədqiqat aparan doktorant tələbə olaraq "Mühəndis qrafikasında dəqiqlik, təhlükəsizlik və texniki etibarlılıq aspektləri" adlı elmi çıxışla mühəndislik qrafikalarının praktiki əhəmiyyətindən bəhs etmişdir.

Hər üç tələbənin elmi işlərinin hazırlanmasında elmi rəhbər qismində Xəzər Universitetinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Aynurə Əliyeva yaxından iştirak etmişdir. Onun rəhbərliyi və elmi dəstəyi sayəsində tələbələrin tədqiqatları konfransın tələblərinə uyğun şəkildə hazırlanaraq qəbul edilmişdir..

Eyni zamanda, tələbələrin məqalələrinin redaktəsi və təqdimatların hazırlanması prosesində İnşaat mühəndisliyi departamentinin assistenti Elnur Qəniyev təşkilati işlərdə mühüm rol oynamışdır. O, tələbələrin konfransa hazırlığını koordinasiya etmiş, təqdimat materiallarını və məqalələri texniki və akademik tələblərə uyğunlaşdırmışdır. Xəzər Universitetinin İnşaat mühəndisliyi departamentinin müdiri Dr. Rasim Bayramlının rəhbərliyi altında tələbələrin elmi fəaliyyətləri getdikcə daha da güclənir. Hər iki konfransda iştirak edən tələbə və tədqiqatçılar sertifikatlarla təltif olunmuş, onların məqalələri isə konfrans materiallarında dərc edilmək üçün qəbul olunmuşdur.

During May students and researchers from Khazar University's Civil Engineering Department participated in two scientific-technical conferences held at the Academy of the Ministry of Emergency Situations of the Republic of Azerbaijan, worthily representing the university's scientific-academic activities. The involvement of department students in scientific research, expansion of international cooperation opportunities, and investigation of important topics related to emergency situations were the main focus of these events.

On May 7, at the scientific conference titled "Climate Change Combat and 'Green World': Research and Applications" held at the Ministry of Emergency Situations Academy, Civil Engineering Department student Sariyya Abishova presented her article titled "Current Problems of Emergency Response in Construction."

At the X Scientific-Technical Conference organized on May 27, Sariyya Abishova continued her scientific research by presenting a second article, while Jala Asgarova delivered a presentation with her article titled "Fire Safety in Construction Sites," providing recommendations on risk reduction methods. Ibrahim Aslan, a doctoral student conducting research at Khazar University through the Erasmus+ program, spoke about the practical importance of engineering graphics with his scientific presentation titled "Accuracy, Safety, and Technical Reliability Aspects in Engineering Graphics."

Aynura Aliyeva, a collaborator of both Khazar University and the Ministry of Emergency Situations, closely participated as scientific supervisor in the preparation of all three students' scientific works. Thanks to her guidance and scientific support, the students' research was prepared and accepted in accordance with conference requirements.

Additionally, Elnur Ganiyev, assistant at the Civil Engineering Department, played an important role in organizational work during the editing of students' articles and preparation of presentations. He coordinated the students' conference preparation and adapted presentation materials and articles to technical and academic requirements.

Under the leadership of Dr. Rasim Bayramli, Head of Khazar University's Civil Engineering Department, students' scientific activities are becoming increasingly stronger. Students and researchers who participated in both conferences were awarded certificates, and their articles were accepted for publication in conference proceedings.



*Tuba Büyükbeşe, Raziyə İsayeva*

## HASAN KALYONCU UNİVERSİTETİNİN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

28 aprel - 2 may tarixində Hasan Kalyoncu Universitetinin (Türkiyə) əməkdaşı Prof. Tuba Büyükbeşe Xəzər Universitetində olmuş, Beynəlxalq əlaqələr şöbəsinin koordinatorları İlqarə Abdullayeva və Seyran Əliyeva, İqtisadiyyat və menecment fakültəsinin əməkdaşları Bahar İmanova və Məhəmməd Çərkəzov ilə görüşmüşdür. Universitetlərin və hər iki universitetin iqtisadiyyat və menecment fakültələrinin fəaliyyəti ilə bağlı qarşılıqlı məlumat verilmişdir.

Prof. Tuba Büyükbeşe İqtisadiyyat və menecmet fakültəsinin tələbələrinə dərs keçmişdir.

Proqramın davamında İqtisadiyyat və menecmet fakültəsinin dekanı Dr. Raziyə İsayeva Prof. Tuba Büyükbeşe`yə sertifikat təqdim etmişdir.

Prof. Tuba Büyükbeşe Bakı şəhərinin mərkəzi ilə də tanış olmuşdur

## HASAN KALYONCU UNIVERSITY STAFF MEMBER AT "KHAZAR"

From April 28 to May 2, Prof. Tuba Büyükbeşe, a staff member of Hasan Kalyoncu University (Türkiye), visited Khazar University and met with International Relations Department coordinators Ilgara Abdullayeva and Seyran Aliyeva, as well as School of Economics and Management staff members Bahar Imanova and Mahammad Charkasov. Mutual information was exchanged regarding the activities of the universities and the economics and management faculties of both universities.

Prof. Tuba Büyükbeşe conducted a lecture for students of the School of Economics and Management.

During the continuation of the program, Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management, presented a certificate to Prof. Tuba Büyükbeşe.

Prof. Tuba Büyükbeşe also became acquainted with the center of Baku city.

## GAZİ UNİVERSİTETİNİN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

## GAZI UNIVERSITY STAFF MEMBER AT "KHAZAR"



*İlqarə Abdullayeva, Elif Yeliz Doğru, Fatimə Vəliyeva*

Gazi Universitetinin (Türkiyə) əməkdaşı Elif Yeliz Doğru mayın 12-16–da Xəzər Universitetində olmuşdur.

Səfər çərçivəsində keçirilən ilkin görüşdə Xəzər Universitetinin Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, mərkəzin koordinatoru Kəmalə Mustafayeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, şöbənin koordinatoru İlqarə Abdullayeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva iştirak etmiş və Xəzər Universiteti haqqında ətraflı məlumat verilmişdir.

Səfərin növbəti günlərində Elif Yeliz Doğru Keyfiyyətin Təminatı Mərkəzinin, İnformasiya texnologiyaları

departamentinin əməkdaşları ilə görüşmüş, universitetdə keyfiyyətin təminatı və informasiya texnologiyaları sahələrində həyata keçirilən fəaliyyətlə tanış olmuşdur.

Proqramın sonunda Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva tərəfindən Gazi Universitetinin nümayəndəsi Elif Yeliz Doğru`ya sertifikat təqdim edilmişdir.

A staff member of Gazi University (Türkiye), Elif Yeliz Doğru, visited Khazar University from May 12-16. During the initial meeting held within the framework of the visit, Lyudmila Sotova, Director of Khazar University's Quality Assurance Center, Kamala Mustafayeva, Coordinator of the Center, Fatima Valiyeva, Head of the International Relations Department, Ilgara Abdullayeva, Coordinator of the Department, Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology, and Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering, participated and provided detailed information about Khazar University. During the following days of the visit, Elif Yeliz Doğru met with staff members of the Quality Assurance Center and the Information Technology Department, and became acquainted with activities carried out in the fields of quality assurance and information technology at the university.

At the end of the program, Fatima Valiyeva, Head of the International Relations Department, presented a certificate to Elif Yeliz Doğru, the representative of Gazi University.

## *TÜRKİYƏNİN QAZİ UNİVERSİTETİNƏ ELMİ EZAMİYYƏT*

Mayın 22-28-də İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Xanım Öməroğlu Türkiyənin Qazi Universitetinə qarşılıqlı əməkdaşlıq çərçivəsində səfər edib. Səfər zamanı o, universitetin Fənn fakültəsinin Riyaziyyat departamentinin müdiri Prof. Dr. Arap Duran Türkoğlu, departament müəllimləri Prof. Dr. Bayram Çekim və Prof. Dr. Aytekin Bayram Çıbık ilə görüşüb.

Görüşdə Dr. Xanım Öməroğlu Xəzər Universitetinin fəaliyyəti və müvafiq ixtisasları haqqında türkiyəli həmkarlarına ətraflı məlumat verib. O, həmçinin, mayın 23-də "Harmonik analizin əsas inteqral çevirmələri" başlıqlı seminar ilə Riyaziyyat departamentinin akademik heyəti - Prof. Dr. -lar Mustafa Özkan, Cüneyt Çevik, Arap Duran Türkoğlu, Hakan Efe, Bayram Çekim, Mediha Akçay Örkcü, Aytekin Bayram Çıbık, Dr. Sezin Çit və. Neslihan Biricik Hepsisler qarşısında çıxış edib və mövzu ətrafında yaranan suallara cavab verib.




*Xanım Öməroğlu, Arap Duran Türkoğlu*

Seminarın sonunda Prof. Dr. Arap Duran Türkoğlu Dr. Xanım Öməroğluya sertifikat təqdim edib.

## *ACADEMIC MISSION TO GAZI UNIVERSITY OF TÜRKIYE*

From May 22-28, Dr. Khanim Omeroglu, Deputy Dean of the School of Economics and Management, visited Gazi University of Türkiye within the framework of mutual cooperation. During the visit, she met with Prof. Dr. Arap Duran Turkoglu, Head of the Mathematics Department of the university's Faculty of Science, and department faculty members Prof. Dr. Bayram Cekim and Prof. Dr. Aytekin Bayram Cibik.

During the meeting, Dr. Khanim Omeroglu provided detailed information to her Turkish colleagues about Khazar University's activities and relevant specializations. She also delivered a seminar titled "Fundamental Integral Transforms of Harmonic Analysis" on May 23 before the academic staff of the Mathematics Department - Prof. Dr. Mustafa Ozkan, Cuneyt Cevik, Arap Duran Turkoglu, Hakan Efe, Bayram Cekim, Mediha Akcay Orkcu, Aytekin Bayram Cibik, Dr. Sezin Cit, and Neslihan Biricik Hepsisler - and answered questions arising around the topic.

At the end of the seminar, Prof. Dr. Arap Duran Turkoglu presented a certificate to Dr. Khanim Omeroglu.

## "FOOD FAIR" XEYRİYYƏ YARMARKASI

Xəzər Universitetində mayın 27-də "Food Fair" adlı sosial yönümlü xeyriyyə yarmarkası keçirildi. Tədbir İqtisadiyyat və menecment fakültəsi, Tələbə Məclisi, Musiqi Klubu və İqtisadçı Tələbə İnkişaf Klubu tərəfindən birgə təşkil olunmuşdu.



Yarmarkanın əsas məqsədi universitet tələbələrinin təşəbbüskarlığını və sosial məsuliyyət hissini təşviq etməklə yanaşı, ehtiyac içində olan bir ailəyə maddi dəstək göstərmək idi. Tələbələr ölkənin müxtəlif regionlarına məxsus məşhur yeməkləri hazırlayaraq, satışa təqdim etdilər və əldə olunan bütün gəlirin yardım məqsədilə istifadə olunması planlaşdırıldı.

Tədbirin həyata keçirilməsində bir sıra sponsorlar da yaxından iştirak etdilər. SAB şirkəti süd və ət məhsulları ilə, ABAD və "İrəvan Mətbəxi" isə özünəməxsus mətbəx nümunələri ilə tədbirə dəstək oldular. Eyni zamanda, "İlğım Azərbaycan" və "Mondiqo" brendlərinin də qatqısı ilə süfrələr daha da zənginləşdi.

Musiqi, dostluq və yardımlaşma ruhunda baş tutan bu tədbir həm tələbələr, həm də universitet kollektivi tərəfindən böyük maraqla qarşılandı. Bu təşəbbüs Xəzər Universiteti tələbələrinin cəmiyyətə faydalı və sosial cəhətdən məsuliyyətli fərdlər kimi formalaşmasında atılmış mühüm addımlardan biridir.

## "FOOD FAIR" CHARITY MARKET

A socially-oriented charity market called "Food Fair" was held at Khazar University on May 27. The event was jointly organized by the School of Economics and Management, Student Council, Music Club, and Economist Student Development Club.

The main objective of the market was to promote the entrepreneurship and social responsibility awareness of university students, while providing financial support to a family in need. Students prepared famous dishes from various regions of the country, offered them for sale, and planned to use all proceeds for charitable purposes.

Several sponsors also actively participated in organizing the event. SAB company supported the event with dairy and meat products, while ABAD and "Yerevan Kitchen" contributed with their distinctive culinary samples. At the same time, tables were further enriched with contributions from "Ilghim Azerbaijan" and "Mondiqo" brands.

This event, held in the spirit of music, friendship and mutual assistance, was met with great interest by both students and the university community. This initiative represents one of the important steps taken in shaping Khazar University students as socially responsible individuals who are beneficial to society.

# XƏZƏR UNİVERSİTETİ AVRASİYA AKADEMİYASININ QURUCULARINDAN VƏ İLK ÜZVLƏRİNDƏN BİRİ MAHMUT GAZİ YAŞARGİL VƏFAT ETMİŞDİR

# MAHMUT GAZI YAŞARGIL, FOUNDER AND ONE OF FIRST MEMBERS OF KHAZAR UNIVERSITY'S EURASIAN ACADEMY, DIES



Tibb elmləri doktoru, neyrocərrah, professor Mahmut Gazi Yaşargil 2025-ci il iyunun 11-də 99 yaşında vəfat etmişdir.

Mahmut Gazi Yaşargil 1925-ci ildə Türkiyədə, Diyarbakırda anadan olmuş, ilk və orta təhsilini Ankarada almışdır.

1944-45-ci illərdə Almaniyanın Friedrich Schiller Universitetində (iki semestr), sonra İsveçrənin Basel Universitetində tibbi təhsil almış, 1950-ci ildə burada tibb doktoru dərəcəsini qazanmışdır. 1953-1993-cü illərdə müəyyən fasilələrlə İsveçrədə, əsasən Sürix Universitetində və universitet xəstəxanasında çalışmış, 1973-ci ildə professor və Neyrocərrahiyyə departamentinin müdiri olmuşdur.

1965-67-ci illərdə ABŞ-da Vermont Universitetində (Burling-tonda) işləmişdir. 1994-cü ildən etibarən Amerikada, əsasən Arkansas Universitetinin tibb fakültəsində çalışmış, neyrocərrahiyyə üzrə araşdırmalar aparmış və dərs demişdir. 7500 cərrahiyyə əməliyyatı aparmış, 3000- dən çox peşəkar cərraha öz sənətinin sirlərini öyrətmişdir. Özü düzəltdiyi tibbi alətlərlə beyində əməliyyatlar aparmışdır. Çoxsaylı monoqrafiya və məqalələr müəllifidir. Çoxsaylı mükafatlara, medallara və fəxri adlara layiq görülmüşdür. 1999-cu ildə "Neuro-surgery" dərgisi tərəfindən ənənəvi Neyrocərrahlar Konqresinin illik toplantısında "1950-1999-cu illər dövrünün neyrocərrahı" elan edilmişdir.

Professor Mahmut Gazi Yaşargil 2014-cü ildə vətənə dönmüşdür. Ömrünün sonunadək İstanbulda, Yeditepe Universitetinin Beyin cərrahiyyəsi şöbəsinə rəhbərlik etmişdir.

Xəzər Universitetinin kollektivi Mahmut Gazi Yaşargil`in vəfatından kədərləndiyini bildirir, ailəsinə və Yeditepe Universitetinin rəhbərliyinə dərin hüznlə başsağlığı verir.

**Xəzər Universiteti**

Doctor of Medical Sciences, neurosurgeon, Professor Mahmut Gazi Yaşargil passed away on June 11, 2025, at the age of 99.

Mahmut Gazi Yaşargil was born in 1925 in Diyarbakır, Türkiye, and received his primary and secondary education in Ankara.

In 1944-45, he pursued medical education at Friedrich Schiller University in Germany (two semesters), then at Basel University in Switzerland, where he earned his medical doctorate degree in 1950. From 1953 to 1993, he worked intermittently in Switzerland, primarily at the University of Zurich and the university hospital, becoming a professor and head of the Neurosurgery Department in 1973.

From 1965 to 1967, he worked at the University of Vermont (in Burlington) in the United States. Since 1994, he worked in America, primarily at the University of Arkansas Medical School, conducting neurosurgical research and teaching. He performed 7,500 surgical operations and taught the secrets of his craft to more than 3,000 professional surgeons. He performed brain operations using medical instruments he designed himself. He is the author of numerous monographs and articles. He has been awarded numerous prizes, medals, and honorary titles. In 1999, he was declared "Neurosurgeon of the 1950-1999 Period" by "Neurosurgery" journal at the annual meeting of the traditional Neurosurgeons Congress.

Professor Mahmut Gazi Yaşargil returned to his homeland in 2014. Until the end of his life, he headed the Brain Surgery Department at Yeditepe University in Istanbul.

The staff of Khazar University expresses its sorrow over the death of Mahmut Gazi Yaşargil and extends its deepest condolences to his family and the leadership of Yeditepe University.

**Khazar University**

# TURİSTLƏR ÜÇÜN DÜNYANIN ƏN TƏHLÜKƏLİ 3 ÖLKƏSİ



Kanadanın "HelloSafe" analitik və maliyyə platformasına görə, 2025-ci ildə beynəlxalq səyahətlər üçün ən təhlükəli ölkələr Sudan, Cənubi Sudan və Əfqanıstan seçilib.

"Qafqazinfo" xəbər verir ki, statistikaya görə, Sudan turistlər üçün ən təhlükəli ölkələr arasında lider yeri tutub - onun təhlükəsizlik indeksi 100 baldan 82,32 bal təşkil edib.

Cənubi Sudan ikinci yerdə 79,21, Əfqanıstan isə 78,42 balla üçüncü olub. Mütəxəssislərin fikrincə, bu ölkələr zorakılıq aktlarının ən çox baş verdiyi və həm də daxili münaqişələrə daha çox meylli olan ölkələrdir.

Qeyd edək ki, "HelloSafe" dünya üzrə səyahətlərin təhlükəsizliyini qiymətləndirmək üçün beş kateqoriyaya bölünən 35 meyardan istifadə edir: təbii fəlakətlər, cəmiyyətdə zorakılıq, daxili və ya xarici silahlı münaqişələrdə iştirak, səhiyyə infrastrukturu və ölkənin hərbiləşdirilməsi.

Beləliklə, 0-dan 100-ə qədər ən aşağı bal toplayan ölkələr səyahətçilər üçün ən etibarlı hesab olunur.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin əməkdaşı

**Ramiz Nağıyevin**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq,
təhsildən zövq almaq və
yadda qalan tələbə
həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq
- Biotexnologiya
- İnformasiya təhlükəsizliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi